UNİKAL

№10 (2289) 13 mart 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# "Sülhdən daha yaxşı heç nə yoxdur" - Bakı beynəlxalq tədbirə ev sahibliyi etdi




Səh.2

## Paşinyan Qarabağla bağlı iddianı yeni Konstitusiyadan çıxartdırır

*"Yeni Konstitusiyada Müstəqillik Bəyannaməsinə istinad edilməməlidir". "Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib. O, bildirib ki, Müstəqillik Bəyannaməsi münaqişə məntiqi üzərində qurulub: "Biz bu məntiqə əməl edib müstəqil dövlət qura bilmərik".Qeyd edək ki, Müstəqillik Bəyannaməsində Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı müddəa yer alıb. Azərbaycan da məhz bunun dəyişdirilməsini tələb edir.*

Səh.9

## "Dollar heç vaxt manata qarşı ucuzlaşmayacaq"



*İqtisadçı-ekspert Xalid Kərimli "Unikal"a müsahibə verib. O, dünya bazarında neft qiymətlərinin kəskin bahalaşmasının hansı müsbət-mənfi tərəflərinin olmasından, hansı həddə qədər bahalaşacağından, dolların ucuzlaşma ehtimalından və xaricdən idxal edilən məhsulların qiymətinin necə olacağından danışıb.*

Səh.4

## Məleykə Abbaszadəyə "istefa" çağırışları...



*Son günlər sosial şəbəkələrdə Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadə ilə bağlı narazılıqlar artmaqdadır. Bir qrup şagird və abituriyent keçirilən imtahanların çətin olduğunu iddia edərək onun istefasını tələb edən paylaşımlar edir.*

Səh.2

## "Kimsə galib regionda bizə dərs deməsin" - Hikmət Hacıyev



*"Unikal" xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bakıda keçirilən Qlobal Bakı Forumu çərçivəsində "Böhranda çoxtərəflilik: Qlobal Əməkdaşlığın Yenidən Nəzərdən Keçirilməsi"...*

Səh.2

10_27 IYUI-QARA.qxd 3/12/2026 8:30 PM Page 2



# "Biz abrımıza bürünmüşük, onlar da efiri nə günə qoyub"



***”Yazırlar, bu nə saçdır, geyimdir? Niyə bahalı geyinmirsən? İstəmirəm, geyinmirəm. Mənim üçün əski parçasıdır, ayaqqabının altı yerə dəyir. Ən bahalı mən özüm olmalıyam. Nəyə lazımdır geyim brend, bahalı olsun? Tamaşaçını elə öyrəşdiriblər ki, müğənni brend geyinməlidir. Elnarə ilə 17 mahnı təqdim edir. Xəbərləri yoxdur. Soruşsan kim hansı toyda hansı paltarı geyinib, onu yaxşı bilirlər”.***

“Unikal” xəbər verir ki, bu sözləri müğənni Elnarə Xəlilova ”Musicologiya” yutub layihəsində deyib. Sənətçi geyimlərini, saçlarını tənqid edənlərə cavab verib. O bildirib ki, ağ saçlarını boyamağı düşünmür: ”Saçımdakı ağları uzadıram. İstəyirəm təbii ağ saçlarım olsun. Sosial şəbəkədə yazırlar saçınıza dib boyası qoyun. Hamıya başa sala bilmirəm ki, 46 yaşım var, saçım ağarır və mən özümü yaşıma uyğun görmək istəyirəm. Mən də bilirəm ki, dib boyası deyilən bir şey var. Tamaşaçını öyrəşdirmək gözəldir. Son bir neçə ayda yazırlar ”Nəhayət gözümüz təbilik gördü”. Uzun müddət bununla mübarizə apardım. Böyük qüvvə üstümə gəldi: bu nədir, nə geyimdir, nə saçdır”.

E.Xəlilova verilişlərə getməməsinin səbəbini açıqlayıb: ”Efirə yaraşdırmıram özümü. Məcburam gedim, kiminləsə qırğına çıxım, aləm dəysin bir-birinə və səsimi alsın? Mənim kimi Xalq artistləri var ki, abırlarına bürünüb çəkiliblər kənara. Nəticədə efir nə günə qalıb. Həyasız da elə bilir bizim deməyə sözümüz yoxdur. Bu imkan onlara yaradılmamalıdır. televiziya rəhbəri aparıcıya və müğənnilərə o imkanı verməməlidir. Uşağımızın tərbiyəsini korlaya, mədəniyyət öyrədə də bilər”(axşam.az).

# “Toyda hər janrı oxuyur, belə müğənni harada var?”




***Əməkdar artist Ədalət Şükürov ”Həmin Zaur” verilişində müğənnilərin müxtəlif janrlarda mahnı ifa etməsi ilə bağlı fikirlərini bölüşüb.***

Axşam.az xəbər verir ki, sənətçi bir ifaçının eyni anda müxtəlif janrlarda mahnı oxumasını düzgün hesab etmədiyini bildirib: “Hər müğənni yerini bilməli, özünü rahat hiss etdiyi janrlarda mahnı ifa etməlidir. Mən muğam, rep oxusam və ya başqası şanson ifa etsə, düz gəlməz. O ki qaldı bizim müğənnilərimizə - rus, ingilis dillərində, xalq mahnısı, şanson, muğam oxuyurlar. Belə müğənni harada var? Vallah, yoxdur. Toya gəlirsən, müğənni 4 saat ərzində nə istəsən oxuyur. Amma məsələn, Rusiyada müğənniyə desəniz ki, filankəsin mahnısını oxu, qəti ifa etməz. Deyər ki, o onun repertuarıdır, mən necə ifa edim?”.



# Aygün Kazımova həmin gecədə qonaq oldu

***Xalq artisti Aygün Kazımova ”Nargis Magazine”in mart buraxılışının təqdimat gecəsinə qatılıb.***

Pop kraliça dərginin bu ay olan buraxılışında üz qabığonağı olub. Kazımova sənətindən, həyat tərzindən danışaraq, baş redaktor Ülviyyə Mahmudovanın suallarını cavablandırıb.

Ölkənin əsas ulduzu gecədə məşhur ”Novruz gəlir” mahnısını oxuyub və fotolar çəkdirib.

# Nigar "Avroviziya" təmsilçimizdən və mahnıdan danışdı

***”Avroviziya 2011” qalibi Nigar Camal müsabiqədə bu il ölkəmizi təmsil edəcək JİVA və ”Just go” mahnısından danışıb.***

Müğənni ”İncə səhər” verilişində mahnının ”Avroviziya” kimi beynəlxalq müsabiqəyə uyğun olmadığını deyib:

”Çox söz deməyəcəyəm. İstəyirəm bizi yüksək səviyyədə təmsil etsin. ”Avroviziya”nın formatı dəyişib. Deyirlər, gözəl səsi var. Bəli, gözəldir. Amma orada elə gözəl səslər var ki... Bizdən ən gözəl səsi göndərsən belə, onlarda yaxşısı olacaq. Yaxşı mahnı olmalıdır. Bizim dildə danışan və düşünən insanın yazdığı mahnı olmamalıdır. Avropada yaşayan, onlar kimi düşünən biri mahnı yazmalıdır. Mahnını eşidən kimi bildim bizimkilər yazıb”.

# "Ölmədik, bu günü də gördük" - Elariz Məmmədoğlu



***Uzun müddətdir Amerikaya köçən müğənni Elariz Məmmədoğlu Türkiyəyə gəlib.***

Axşam.az xəbər verir ki, sənətçi video yayımlayaraq İstanbul səfərinin məqsədinin konsert olduğunu deyib. O bildirib ki, 8 Martda İstanbulda konsert verib. Sonra insanların istəyi ilə ona yenidən təklif gəlib.

”Tamaşaçıların arzusu ilə yenidən konsert olacaq. Sizlərin arzusu ilə... Ölmədik bu günü də gördük” deyə, Elariz bildirib.

Qeyd edək ki, ”Green card” qazanan Elariz uzun illərdir ailəsi ilə birlikdə ABŞ-ya köçüb. 2018-ci ildən Amerikada yaşayan sənətçi o vaxtdan Bakıya gəlmir.

# "Onların yolunu kəsməyin, kömək edin"

***”Evdə hər kəslə məsləhətləşirəm. Bəlkə bu, ya bu yaxşıdır? Sonra da öz seçimimi edirəm. Onlar da istəyir mənim üçün ən yaxşısı olsun”.***

Bu sözləri Xalq artisti Nisə Qasımova deyib. Uzun fasilədən sonra ”Xəzər axşamı” proqramına qonaq olan müğənni ailəsindən danışıb. O bildirib ki, bir yerə gedəndə və hansısa işi görəndə ailəsinin fikrini öyrənir. Mahnılarının gənc ifaçılar tərəfindən oxunmasından danışan müğənni bunları deyib: ”Gənc ifaçılar repertuarıma müraciət edirlər. Oxumağı bacaran oxusun. Yaxşı oxumayana belə pis nəsə demərəm. Hamımız zamanla püxtələşmişik. Mən də birdən-birə Nisə Qasımova olmamışam. Oxuya bilməyəni göndərərik müəllim yanına. Onların yolunu kəsməyək, kömək olaq”.

10_27 IYUl-QARA.qxd 3/12/2026 8:30 PM Page 3





# Dövlət şirkətlərinin vəsaitindən xərcləməyə görə cəzalar müəyyənləşir

***Dövlətə məxsus olan hüquqi şəxslərin vəsaitindən təyinatı üzrə istifadə etməməyə görə cəzalar müəyyənləşir.***

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin bu gün videokonfrans formatında keçirilən birgə iclasında müzakirəyə çıxarılan Cinayət Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb. Başqa sözlə, Cinayət Məcəlləsinin 308-1-ci maddəsində (Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə) cinayətin predmeti olan vəsaitin əhatə dairəsi genişləndiriləərək dövlətə məxsus olan hüquqi şəxslərin vəsaiti də maddənin təsir dairəsinə salınır. Maddənin hazırda qüvvədə olan sanksiyasında cərimənin məbləği konkret aralıqda (doqquz min manatdan on üç min manatadək) nəzərdə tutulduğu halda, layihəyə əsasən cərimə "cinayətin predmetinin dəyərinin (təyinatından kənar istifadə olunan vəsaitin) yüz faizi miqdarında" müəyyən edilir. Bu dəyişikliklə cərimənin miqdarı birbaşa vurulan zərərlə əlaqələndirilir. Eyni zamanda, külli miqdarda törədilən əməllərə görə alternativ cəza növü kimi üç ilədək müddətə azadlığın məhdudlaşdırılması da əlavə edilir.

Layihəyə əsasən, Cinayət Məcəlləsinin 308-1-ci maddəsinin Qeyd hissəsinə əlavə olunacaq 2-ci bənddə "dövlətə məxsus olan hüquqi şəxslər" dedikdə nəyin nəzərdə tutulması göstərilir. Qeyd olunan bəndə əsasən, "dövlətə məxsus olan hüquqi şəxslər" dedikdə paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan kommersiya hüquqi şəxsləri, dövlətin yaratdığı qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər, habelə qeyd olunan hüquqi şəxslərin yaratdığı paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə həmin hüquqi şəxslərə məxsus olan törəmə təsərrüfat cəmiyyətləri, qeyri-kommersiya hüquqi şəxsləri və publik hüquqi şəxslər nəzərdə tutulur.

Bundan başqa, Cinayət Məcəlləsinin 308-1-ci maddəsinin Qeyd hissəsinə əlavə olunacaq 3-cü bəndə əsasən, müvafiq əməlləri ilk dəfə törətmiş şəxs vurduğu ziyanı tam ödədikdə məsuliyyətdən azad olunacaq.

İnzibati Xətalar Məcəlləsinin 410-cu maddəsində də bununla əlaqədar dəyişikliklər nəzərdə tutulur. Belə ki, "dövlətə məxsus olan hüquqi şəxslər" maliyyə-təsərrüfat fəaliyyətində maliyyə qaydalarının pozulmasına görə məsuliyyət daşıyan subyektlər sırasına əlavə edilir və hazırda cərimənin məbləği dəymiş ziyanın həcmindən asılı olaraq dörd yüz manatdan səkkiz min manatadək olduğu halda, layihəyə əsasən bütün hallarda cərimə "inzibati xətanın bilavasitə obyekti olmuş vəsaitin yüz faizi məbləğində" müəyyən ediləcək. Buna uyğun olaraq, İnzibati Xətalar Məcəlləsinin 410.2 və 410.3-cü maddələri ləğv edilir.

# Məleykə Abbaszadəyə "istefa" çağırışları...

## DİM-in keçirdiyi son imtahandan sonra yenə qalmaqal qopdu - Abituriyentlər və müəllimlər bu dəfə nədən narazıdırlar?

***Son günlər sosial şəbəkələrdə Dövlət İmtahan Mərkəzinin (DİM) sədri Məleykə Abbaszadə ilə bağlı narazılıqlar artmaqdadır. Bir qrup şagird və abituriyent keçirilən imtahanların çətin olduğunu iddia edərək onun istefasını tələb edən paylaşımlar edir.***

Abituriyentlər xüsusilə martın 9-da tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında təqdim olunan bəzi sualların həddindən artıq mürəkkəb olduğunu bildirirlər. Onların sözlərinə görə, sualların bir hissəsi proqramdan kənar olub və bu da imtahan iştirakçıları arasında ciddi narazılıq yaradıb.

"Nokomment.az"ın yazdığına görə, sosial mediada yayılan paylaşımlarda bəzi istifadəçilər imtahan sistemində dəyişikliklərin aparılmasının vacibliyini vurğulayır, digərləri isə Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin yenidən qiymətləndirilməli olduğunu qeyd edirlər.

Valideynlərdən biri bildirib ki, imtahanda Azərbaycan dili qrammatikası blok səviyyəsində çıxıb, bu da bir daha göstərir, şagirdlərin universitet xəyalı repetitorsuz gerçəkləşməsi çətin olar (musavat.com). Başqa bir valideyn - Təranə Vəliyeva isə bunları deyib:"Riyaziyyatdan açıq suallar çox çətin düşüb". Digər bir valideyn əlavə edib: "Bizi dinləyən olsaydı, dərdimizi deyərdik. Təəssüf ki, uşaqlar çox stress keçiriblər, imtahan çətin olub". Günay Əhmədova adlı valideyn yazıb: "Qızım gəlib ağladı, riyaziyyat açıq suallar çox çətin idi".

Maraqlıdır ki, repetitorlar belə sualların çətinliyindən şikayətləniblər. "10 ildir repetitoram. Azərbaycan dilində mətnlərin sualları elə uzun idi ki, səbrim çatmadı oxumağa. Uşaq onsuz da həyəcanlıdır" - onlardan biri vurğulayıb.

"Elə bil sualları tərtib edənlər uşaqların qəsdinə durublar. Suallar orta məktəb səviyyəsində olmalıdır. Məşğələsiz uşaq biliyə sahib ola bilmir. Təhsil əla biznes mənbəyinə çevrilib: pullu kurslar, saysız-hesabsız kitab nəşrləri. Dünyanın heç bir yerində bizdəki kimi çətin imtahan sistemi yoxdur..." - başqa bir şikayətçi qeyd edib.

Təhsil ekspertlərinin də mövzuya münasibəti fərqli deyil. Məsələn, Elçin Əfəndi imtahan suallarının proqramla uyğunluğunu şübhə altına alıb. "Unikal"ın məlumatına görə ekspert özünün sosial şəbəkə hesabında yazıb: "Bugünkü (martın 9-dakı - red.) imtahandan sonra məlum oldu ki, suallar Elm və Təhsil Nazirliyinin tədris proqramına və dərsliklərinə əsaslanmayıb. Sanki Türkiyə, Gürcüstan və Cəbəllüttariq proqramına uyğun hazırlanıb. Nədənsə, bu məqam hər il ortaya çıxır, amma DİM və Elm və Təhsil Nazirliyi heç bir tədbir görmür. Bu, qəbul edilməsi deyil".

Ekspert konkret təkliflərlə də çıxış edib. Sitat: "Ali təhsil müəssisələrinə qəbul qaydaları və imtahan formatı dəyişməlidir. Dünyanın heç bir ölkəsində ixtisas qrupları yoxdur və bu qədər fəndən imtahan götürülmür. Bu istismardı. Həm şagirdi, həm də valideyni!

6-7 fənn üzrə hazırlaşan bir abituriyent məktəb təhsili ilə kifayətlənmir və təhsili kənarda axtarır. Bu zaman isə ailə büdcəsi 1 fənn üzrə ən azı 70-80, bəzən isə ən çoxu 100-200, hətta 250-300 AZN xərc çəkməli olur. 6 fənn üzrə bir ailə aylıq 400 manatdan 1500 manatadək hazırlıqlara pul tökür. Bu istismar deyilsə nədir? Dövlət pulsuz təhsil verir, əziyyət çəkin təhsili qaytarın məktəbə!



Vahid qəbul qaydası işlənib hazırlanmalıdır. Dünyanın qabaqcıl ölkələrinə və onların qəbul qaydalarına baxın.

Təhsili məktəbə qaytarın! Bu gün yalnız məktəb təhsili ilə kifayətlənən məktəb şagirdləri Dövlət İmtahan Mərkəzinin keçirdiyi buraxılış imtahanlarında 0-50 arası da bal toplaya bilmirlər. 50-300 bal aralığında nəticə göstərən şagirdlər təhsil mərkəzlərinin, kursların, repetitorların nəticəsidir.

Fənlərin sayı minimallaşdırılmalıdır. 2-3 fənn üzrə qəbul aparılmalıdır. Qəbul bir dəfə keçirilməlidir. Nəticələr də ən geci 10-15 gün ərzində elan olunmalıdır. Martdan başlayan proses sentyabr ayında güclə başa çatır".

DİM isə bütün bu tənqidlərlə razılaşmır. Qurumdan bildirilib ki, hər bir imtahanda müxtəlif hazırlıq səviyyəsinə malik iştirakçıları birbirindən fərqləndirmək üçün bütün fənlər üzrə test blokunda asan, orta və çətin test tapşırıqlarından istifadə edilir: "Çünki imtahanda yalnız zəif və orta hazırlıqlı abituriyent deyil, yaxşı hazırlıqlı iştirakçıları da bir-birindən fərqləndirmək tələb olunur. Ümumiyyətlə imtahanın asan və ya çətin olması nisbi bir məsələdir. İmtahan iştirakçısının hazırlıq səviyyəsinə görə bu, əlbəttə, dəyişir. Hər hansı bir tapşırıq kimə görəsə çətin, kimə görəsə asan ola bilər. Ancaq ənənəvi təhlillər göstərir ki, test tapşırıqlarının çətin olması ilə bağlı bəzi iştirakçılar tərəfindən səsləndirilən mülahizələr həqiqətə uyğun olmur. İmtahanın mürəkkəblik dərəcəsi sosial şəbəkələrdə yazılanlara əsasən müəyyən edilmir. Bunu əsasən hər imtahandan sonra zəif hazırlıqlı iştirakçılar yazırlar. Bu hər il təkrarlanır. Hazırda yekun imtahan nəticələri elan olunmayıb. Ona görə də heç kəs konkret fikir söyləyə bilməz. Nəticələr elan olunduqdan sonra lazımi göstəricilər ictimaiyyətə təqdim olunur. Həmin vaxt biz görürük ki, imtahan normal olub və iştirakçıların bilik səviyyələrinə uyğun normal sıralaması həyata keçirilib".

Xatırladaq ki, DİM ölkədə ali təhsil müəssisələrinə qəbul imtahanlarının təşkili ilə məşğul olan əsas qurumdur və mərkəzə uzun illərdir Məleykə Abbaszadə rəhbərlik edir. Son vaxtlar 73 yaşlı Abbaszadənin təqaüdə göndəriləcəyi barədə bir neçə dəfə xəbər yayılsa da, həmin məlumatlar təsdiqini tapmayıb.

***Toğrul Əliyev***

# Qalibi proqnozlaşdırılmayan müharibə nə vaxt bitəcək?

***ABŞ, İsrail və İran arasında davam edən qarşıdurma 2026-cı ilin ən təhlükəli geosiyasi böhranlarından birinə çevrilib. Hərbi zərbələr, raket hücumları və iqtisadi sarsıntılar artıq Yaxın Şərqdə yayılmaqdadır. Nəticədə kimin qalib gələcəyi və müharibənin nə qədər davam edə biləcəyi ilə bağlı suallar artır...***

Belə bir məqamda müharibənin parlaq qalibinin olması ehtimalı azdır. Son dövrlərin ən parlaq və tam qələbəsi Azərbaycan və Ermənistan arasında 44 günlük Vətən müharibəsi idi. Bu, birmənalı və mübahisəsizdir.

İrandakı müharibədə isə vəziyyət tam fərqlidir. Nəticə hərbi dözümlülükdən, siyasi sabitlikdən və beynəlxalq diplomatiyadan asılı olacaq.

Münaqişə ABŞ və İsrail qüvvələrinin İranın hərbi infrastrukturunu, raket mərkəzlərini və nüvə obyektlərini hədəf alan genişmiqyaslı hava hücumları ilə başladı. İlkin məlumatlara görə, İran hədəflərinə minlərlə zərbə endirilib. İran və onun regional müttəfiqləri tərəfindən raket və pilotsuz təyyarələrlə cavab hücumları edildi. Hazırda da qarşılıqlı hücumlar davam edir.



Lakin İran raket buraxılış qurğularının 90%-dən çoxunu itirib. Ona görə də əsas gücü sayılan ballistik raket atışları xeyli azalıb. ABŞ və İsrail isə iqtisadi və maliyyə itkilərinə rəğmən hücumları davam etdirirlər.

### İqtisadi təsirlər

Müharibə artıq qlobal bazarlara və neft təchizatına, xüsusən də qlobal enerji daşınmaları üçün vacib marşrut olan Hörmüz boğazı ətrafına da təsir göstərib.

Dünya neftinin 20 faizinin keçdiyi su yolu olan Hörmüz boğazı müharibənin ikinci günündən bəri kommersiya gəmiçiliyi üçün faktiki olaraq bağlanıb. Tankerlər üçün sığorta tarifləri kəskin şəkildə artıb. Bunun səbəbi təkcə İranın atəş gücü deyil, həm də ucuz dronlarıdır.

Müharibə artıq hər iki tərəfə ağır zərbələr vurub. ABŞ-nin ənənəvi müttəfiqləri olan Körfəz dövlətləri indi İranın cavab hücumlarından qaynaqlanan geniş neft və duzsuzlaşdırma infrastrukturları ilə bağlı getdikcə daha çox narahatdırlar.

Bəlkə də Tramp administrasiyasının hazırda ən böyük problemi müharibənin sonunu müəyyən edə bilməməsidir. Keçmiş Pentaqon rəsmiləri hesab edirlər ki, İranı təslim olmağa məcbur etmək üçün həftələrlə bombardman lazım ola bilər.

Müharibənin fonunda isə "Brent" neftinin qiyməti 100 dolları ötüb və yüksəlməkdə davam edir. Azərbaycan nefti də sürətlə artan tempdədir.

### Hərbi Balans: Kimin Üstünlüyü Var?

Hərbi baxımdan ABŞ-İsrail ittifaqı böyük texnoloji və hava gücü üstünlüyünə malikdir. Onlar qabaqcıl hava qüvvələri və gizli təyyarələr, regional hərbi bazalar, uzaqmənzilli raketlər və dəqiq zərbə qabiliyyəti, eləcə də güclü kəşfiyyat və kiber müharibə imkanları ilə artıq İranın əhəmiyyətli raket və hava hücumundan müdafiə infrastrukturunu məhv ediblər.

Lakin İran da güclü tərəflərə malikdir - böyük raket arsenalı, regional müttəfiqlər və proksi qruplar şəbəkəsi, Fars körfəzində neft daşınmasını pozmaq qabiliyyəti. Buna əhalinin xarici hücum zamanı birləşməsi və strateji dərinliyi də əlavə etmək olar. Çünki bu, İranı daha güclü etdi və rejim dəyişikliyinin qarşısını aldı. Ən azından hələlik belədir.

### Mümkün nəticələr

Hazırda hər iki tərəf qələbə iddia edir. Üstəlik, heç bir ölkə vasitəçilik etmək niyyətində deyil. Görünür, hər iki güc məsələni öz aralarında həll etməlidir.

Ümumiyyətlə üç əsas ssenarini təsvir etmək olar ki, bunlardan ən çox ehtima olunanı məhdud müharibə və danışıqlar yolu ilə həlldir. Bir çox analitiklər inanırlar ki, münaqişə İranın hərbi imkanları zəiflədikdən bir neçə həftə sonra atəşkəs və ya danışıqlarla razılaşma ilə başa çatacaq.

Bu halda İran hökumətini saxlayacaq, nüvə və raket proqramları yeni məhdudiyyətlərlə üzləşəcək. Lakin bunun müqabilində sanksiyalar qismən ləğv edilə bilər.

Digər bir variant uzunmüddətli regional müharibədir. Qisas şiddətlənərsə, müharibə Yaxın Şərqə yayıla bilər. Livandan "Hizbullah" hücumları, İraq və Suriyada milis hücumları, gəmi marşrutlarına və ABŞ bazalarına hücumlar və s. Bu, aylarla və hətta illərlə davam edən regional münaqişə yarada bilər.

Sonuncu ssenari isə İran hökumətinin süqutudur. Bu, daha az ehtimal olunur. Lakin ciddi hərbi ziyan, daxili etirazlar və ya siyasi süqut, eləcə də İranın hazırkı rəhbərliyinin dəyişdirilməsi fonunda bu proseslər baş verə bilər.

Bəzi proqnozlar rejimin süqut ehtimalını 30-40% civarında göstərir. Yeni varis Müctəba Xameneinin atası kimi güclü təsirə malik olmayacağı aydındır. Lakin ona beyət edilib və hərbi güc ətrafında birləşib. Onun da öldürülməsi halında inqilabçılar gedə bilər.

### Müharibə nə vaxt bitə bilər?

İndiki məqamda İran özünü qısasa kökləyib və Qurban bayramından əvvələ qədər dayanmaq niyyətində deyil. ABŞ isə məsələni kökündən həll etmək istəyir ki, İran illərlə özünə gələ bilməsin.

Əksər hərbi analitiklər eskalasiya nəzarət altında qalarsa, müharibənin gərgin mərhələsinin təxminən 2-4 həftə davam edəcəyini gözləyirlər. Lakin geosiyasi münaqişələr nadir hallarda tez başa çatır. Bombalama tezliklə dayandırılsa belə, regional gərginlik illərlə davam edəcək. Proksi münaqişələr, sanksiyalar və iqtisadi müharibə uzunmüddətli olacaq.

Başqa sözlə, döyüş meydanındakı müharibə tezliklə başa çata bilər, lakin siyasi münaqişə daha uzun müddət davam edə bilər.

### Bəs kim qalib gələcək?

Hərbi qələbə: Üstün hərbi gücə görə ABŞ-İsrail ittifaqı ehtimal olunur. Strateji qələbə: Hələlik qeyri-müəyyəndir. İran hökuməti sağ qalarsa və regionda təsirini saxlayarsa, uğur qazandığını iddia edə bilər.

Nəticədə isə ABŞ-İsrail və İran müharibəsi 13 gündür davam edir. Buna görə dəqiq qalibin proqnozlaşdırılması çətindir. Ən çox ehtimal olunan nəticə hər iki tərəfin tam məğlubiyyəti deyil. Qısa, lakin gərgin bir münaqişənin ardınca danışıqlar istisna edilmir.

Tarix göstərir ki, Yaxın Şərqdəki müharibələr nadir hallarda qəti şəkildə başa çatır. Əksinə, onlar regionun güc balansını gələcək illər üçün yenidən formalaşdırır.

***Ağarza Elçinoğlu***



## Paşinyan Qarabağla bağlı iddianı yeni Konstitusiyadan çıxartdırır

***"Yeni Konstitusiyada Müstəqillik Bəyannaməsinə istinad edilməməlidir".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib. O, bildirib ki, Müstəqillik Bəyannaməsi münaqişə məntiqi üzərində qurulub: "Biz bu məntiqə əməl edib müstəqil dövlət qura bilmərik".

Qeyd edək ki, Müstəqillik Bəyannaməsində Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı müddəa yer alıb. Azərbaycan da məhz bunun dəyişdirilməsini tələb edir.

***Ağarza Elçinoğlu***

## "Azərbaycanla sülh Ermənistanı tranzit ölkəyə çevirəcək"

***"Azərbaycanla sülh Ermənistanın tranzit ölkəyə çevrilməsinə imkan verəcək".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

Onun sözlərinə görə, bu, müstəqil Ermənistan tarixində ilk dəfə olacaq.

"Bunu Azərbaycan lideri Bakı Qlobal Forumunun açılışında elan edib. Eyni zamanda, o, Naxçıvanla Azərbaycan arasında Ermənistan vasitəsilə birbaşa əlaqənin mümkünlüyünü də qeyd etməyi unutmayıb. Əldə edilən sülh ticarət əlaqələrinin qurulmasına şərait yaradacaq", - deyə Paşinyan vurğulayıb.

***Gülayə Mecid***

## Azərbaycan ildə 3 milyard dollar tranzit gəliri əldə edəcək

***"Prezident İlham Əliyev XIII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında Ermənistanla sülhdən sonra Orta Dəhlizin genişləndirilməsi üzərində çalışıldığını və Naxçıvanla birbaşa əlaqənin yaradılacağını bildirib".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, İran müharibəsi başladıqdan sonra regional geosiyasi təhdidlərin daha da artması müşahidə edilməkdədir: "Bölgədəki yeni düzən Azərbaycan və Ermənistan arasında nəqliyyat, eləcə də iqtisadi əlaqələrin yenidən bərpasını daha da aktuallaşdırıb. İki ölkə arasındakı münasibətlərdə mühüm məqamlardan biri də Zəngəzur dəhlizinin istifadəyə verilməsidir. Dəhlizin bir elementi olacaq TRİPP-in inşaatı Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru nəqliyyatının bərpasına imkan verəcək.

15 milyon ton ötürmə potensialı olacaq Zəngəzur dəhlizi regionun inkişafına xüsusi töhfə verəcək. Yaxın gələcəkdə Orta Dəhlizin mühüm seqmentinə çevriləcək Zəngəzur dəhlizi Azərbaycanın geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, region dövlətlərinin gəlirlərinin artmasına imkan yaradacaq. Qitələr arasındakı ticarət dövriyyəsinin 200 milyard dollar artacağı gözlənilir. Yüklərin 10-15 faizinin Zəngəzur dəhlizi vasitəsilə daşınacağı təqdirdə Azərbaycan yaxın gələcəkdə ildə 3 milyard dollar tranzit gəliri əldə edəcək. Bu həmçinin sülhün iqtisadi dividentləri deməkdir".

# İlham Əliyev Fərman imzaladı



***"Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında hökumət təcrübələrinin mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiqlənib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Fərmana əsasən, Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin edəcək, Xarici İşlər Nazirliyi isə Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Birləşmiş Ərəb Əmirlikləri Hökumətinə bildiriş göndərəcək.

# Prezident Jelka Tsviyanoviç ilə görüşüb

***Martın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Jelka Tsviyanoviç ilə görüşüb.***

"Unikal" xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin Jelka Tsviyanoviçlə görüşləri məmnunluqla xatırlandı, ölkələrimiz arasında münasibətlərin genişlənməsi qeyd edildi, müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu. Jelka Tsviyanoviç ənənəvi olaraq keçirilən Qlobal Bakı Forumunda bir neçə dəfə iştirak etdiyini bildirdi.

Görüşdə XIII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirin yüksək səviyyədə təşkil olunduğu qeyd edildi. Forumda həmişə olduğu kimi bu dəfə də, xüsusilə dünyada hazırkı vəziyyət fonunda çox aktual qlobal məsələlərin müzakirə edildiyi vurğulandı.

# YAP İdarə Heyətinin iclası keçirildi

***Martın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.***




"Unikal" xəbər verir ki, iclasın müzakirəsinə YAP-ın 2025-ci il üzrə maliyyə hesabatı təqdim olunub.

Auditorlar Palatasının üzvü Elza Süleymanova çıxış edərək maliyyə hesabatının mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq mükəmməl səviyyədə hazırlandığını, partiyanın hesabat dövrü üçün maliyyə vəziyyətini və maliyyə fəaliyyətinin nəticələrini tam əks etdirdiyini vurğulayıb.

Sonra 2025-ci il üzrə maliyyə hesabatı İdarə Heyətinin üzvləri tərəfindən təsdiq edilib. Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılaraq müvafiq qərarlar qəbul olunub.

Yekunda YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov mütləq suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuş Azərbaycanın "Konstitusiya və Suverenlik İli" olan 2025-ci ildə mühüm uğurlara imza atmaqla milli gücünü və beynəlxalq nüfuzunu daha da artırdığını vurğulayıb. O, qarşıda duran hədəflərə çatmaq üçün Yeni Azərbaycan Partiyasının da üzərinə böyük məsuliyyətin düşdüyünü bildirərək bu kontekstdə partiyanın Nizamnamə və Proqramından irəli gələn vəzifələrin mütəşəkkil qaydada yerinə yetirilməsinin önəmini qeyd edib.

Ölkəmizin "Memarlıq və Şəhərsalma İli"ndə də ardıcıl nailiyyətlər qazanacağına əminliyini ifadə edən YAP Sədrinin müavini iclas iştirakçılarını qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edərək onlara möhkəm cansağlığı və fəaliyyətlərində uğurlar arzulayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# "Kimsə gəlib regionda bizə dərs deməsin " - Hikmət Hacıyev

## "Biz çalışırıq ki, kimsə gəlib regionda bizə dərs deməsin"

***"Unikal" xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Bakıda keçirilən Qlobal Bakı Forumu çərçivəsində "Böhranda çoxtərəflilik: Qlobal Əməkdaşlığın Yenidən Nəzərdən Keçirilməsi" adlı panel müzakirəsində çıxışında deyib.***



O bildirib ki, bölgədən kənar ölkələr maraqlarını ortaya qoyub regiona töhfə verə bilər: "Biz müstəqilliyin ilk illərində ümidlərimizi beynəlxalq təşkilatlara bağlamışdıq. Biz hərbi və siyasi yollarla münaqişəni həll etdik. Bu gün Ermənistan və Azərbaycan sülh gündəliyini dərinləşdirir".

"Azərbaycan davamlı olaraq çoxtərəfliliyi dəstəkləyir, lakin bu məsələdə çox fərqli bir yanaşma görünür. Sülh və təhlükəsizlik məsələlərinə dair böyük böhran var. Bu, birbaşa BMT-nin Təhlükəsizlik Şurası ilə bağlıdır. Şuranın qlobal təhlükəsizlik məsələsində zəifliyi də var", - o vurğulayıb.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan üçün çoxtərəflilik yalnız sözdə deyil, əməldə də vacibdir: "Qoşulmama Hərəkatında bununla bağlı fikirlər ziddiyyətli idi. Lakin Azərbaycanın sədrliyi dövründə təşkilat müxtəlif ölkələr arasında əməkdaşlığa yol açdı. COP-29-da da Azərbaycanın effektiv sədrliyi sayəsində çox mühüm qərarlar qəbul olundu. Azərbaycan Türk Dövlətləri Təşkilatında da fəal rol oynayır. Təşkilatın qurulmasında və genişlənməsində ölkəmizin önəmli rolu var".

# Baş nazir hərbi qeydiyyatla bağlı qərar imzaladı

***Azərbaycanın kişi cinsli vətəndaşlarının ilkin hərbi qeydiyyata alınması qaydası təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qayda ilə cari ildə 15 yaşı tamam olan 18 yaşınadək Azərbaycanın kişi cinsli vətəndaşlarının ilkin hərbi qeydiyyata alınması qaydasını müəyyən ediləcək, habelə həmin şəxslərin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli baş idarə, idarə, şöbə və bölmələrində ilkin hərbi qeydiyyata alınması onların müddətli həqiqi hərbi xidmətə yararlılığının ilkin olaraq müəyyən olunması, hərbi xidmətə müvəqqəti yararsız hesab edilmiş şəxslərin müalicəsinin təşkil edilməsi və müddətli həqiqi hərbi xidmətə çağırış resursunun formalaşdırılmasını, valideynlərin və sözügedən vətəndaşların ilkin qeydiyyatla bağlı elektron məlumatlandırılması, hüquq və vəzifələrinin aydın şəkildə müəyyən edilməsi, prosesin



mərkəzləşdirilmiş, təhlükəsiz və eləcə də şəffaf idarə olunması təmin olunacaq.

# "AzerGold" sədri özünə 10-cu müşavir təyin etdi

***"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədrinin müşavirlərinin sayı 10-a yüksəlib.***

"Unikal" Qaynarinfo-ya istinadən xəbər verir ki, Fuad Babayev İdarə Heyəti sədrinin müşaviri təyin edilib. Bu barədə qurumun İdarə Heyətinin sədri Zakir İbrahimov əmr imzalayıb.

Qeyd edək ki, Fuad Babayev 1999-2023-cü illərdə Gənclər və İdman Nazirliyində baş



məsləhətçi, sektor müdiri, şöbə müdiri və idarə rəisi vəzifəsində çalışıb. 2023-2025-ci illərdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində İdarə Heyəti sədrinin müşaviri olub. Xatırladaq ki, Şahbəddin Musayev, Anar Abdullayev, Əli Əhmədov, Ayşəm Qələmiyeva, Müşfiq Məmmədli, Leyla Sadıxova, Elçin Qasımov, Emin Aslanov və Erkin Vəliyev də Zakir İbrahimovun müşavirləridir.

# Media orqanlarının nəzərinə!

***Mediada dərc olunan və ya yayımlanan informasiyaya dair tələblər artırılacaq.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin bu gün videokonfrans formatında birgə iclasında müzakirə olunan "Media haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Layihəyə əsasən, mediada dərc olunan və (və ya) yayımlanan informasiya aşağıdakı tələblərə cavab verməlidir:

-şəxsin razılığı olmadan, onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə hazırlanmış reallığı əks etdirməyən, yaxud belə texnologiyalar (proqram təminatları) vasitəsilə hazırlanmış pornoqrafik və ya seksual məzmunlu foto, video və ya audio materialların yayılmasına yol verilməməlidir.

Bu tələb pozulduqda yayım Audiovizual Şuranın qərarı ilə 24 saat müddətinədək müvəqqəti dayandırılacaq.

# "Sülhdən daha yaxşı heç nə yoxdur" - Bakı beynəlxalq tədbirə ev sahibliyi etdi

***Martın 12-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumu işə başlayıb.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində çıxış etdi.

-Hörmətli xanımlar və cənablar, sabahınız xeyir. Bütün qonaqlarımızı salamlayır və forumun bütün iştirakçılarına xoş gəlmisiniz deyirəm. İlk növbədə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə, onun həmsədrləri xanım Vike-Freyberqaya və cənab Serageldinə, İdarə Heyətinin üzvlərinə, həmçinin Mərkəzin bütün kollektivinə bu illər ərzində nümayiş etdirdikləri yüksəksəviyyəli fəaliyyətə görə minnətdarlığımı bildirmək istərdim. Bu gün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi geniş spektrli məsələləri əhatə edən və çox yüksək beynəlxalq nüfuza malik aparıcı beynəlxalq qurumlardan biridir.

Mərkəzin fəaliyyətini il ərzində diqqətlə izləyirəm, bir qlobal forumdan digərinə keçərkən görürəm ki, fəaliyyət sahəsi getdikcə genişlənir. Təmaslar son dərəcə fəaldır və dəyişən beynəlxalq vəziyyətə uyğun yeni yanaşmaların işlənib hazırlanmasına verilən töhfə həqiqətən böyük qiymətə layiqdir. Qlobal Bakı Forumuna gəldikdə isə bu, çox nüfuzlu beynəlxalq tədbirdir.

Deyərdim ki, qlobal miqyasda bu forum əsas beynəlxalq forumlarla eyni səviyyədədir: iştirakçıların - prezidentlərin, baş nazirlərin, parlament spikerlərinin, tanınmış ictimai fiqurların, diplomatların, işgüzar dairələrin və vətəndaş cəmiyyəti nümayəndələrinin təcrübəsi baxımından olduqca yüksək səviyyədədir. Həyatımızın müxtəlif sahələrini əhatə edənlər bir araya gələrək fikir mübadiləsi aparır və təcrübə paylaşırlar, qeyd etdiyim kimi, xalqların həyatını daha yaxşı və daha təhlükəsiz etmək üçün ideyalar irəli sürürlər.

Builki forumun gündəliyi çox genişdir. Forum bir çox məsələləri əhatə edir, lakin əminəm ki, müzakirələr zamanı xüsusi diqqət bölgəmizdəki və dünyadakı mövcud vəziyyətə yönələcək. Zənnimcə, indi heç vaxt olmadığı qədər aydındır ki, təhlükəsizlik, sabitlik və müdafiə məsələləri hər bir ölkənin gündəliyində bir nömrəli prioritet olmalıdır. Çünki bunlar olmadan qalan bütün məsələlər tamamilə mənasızdır. Öz inkişafı uğrunda illər, onilliklər ərzində səy göstərmiş ölkələr indi ciddi risklərlə üzləşirlər. Təhlükəsizlik əsas amildir və biz səylərimizi məhz bu istiqamətdə birləşdirməliyik.

Regional təhlükəsizlik Azərbaycan üçün hər zaman bir nömrəli məsələ olub. Çünki mən Bakıda bir çox forumlardakı çıxışlarımda qeyd etmişəm ki, işğal dövründə bizim üçün sülh və suverenliyimizin bərpası hər zaman gündəliyimizin əsas prioriteti olub. Xoşbəxtlikdən, biz artıq sülh şəraitində yaşayırıq, hələlik cəmi yeddi aydır. Bu, bir daha göstərir ki, sülh və ədalət uğrunda güclü siyasi iradə, cəsarət və sadiqlik nümayiş etdirmək kifayətdir ki, məqsədə nail olunsun. Bizə gəldikdə, suverenliyimizin və ərazi bütövlüyümüzün bərpası illər, təqribən 30 il çəkdi. Bunu BMT Nizamnaməsi, onun 51-ci maddəsində nəzərdə tutulmuş özünü müdafiə hüququ çərçivəsində həyata keçirdik.

Biz işğal olunmuş əraziləri güc vasitəsilə azad etdik və sülhə siyasi yollarla nail olduq. Beləliklə, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi. Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu mənfi təcrübə olmuşdur.




Daha sonra 2020-ci ilin 44 günlük Vətən Müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.

Üçüncü təcrübə isə sülh təcrübəsidir - sülhə necə nail olmaq olar. Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur.

Zənnimcə, dünyada hazırda baş verənlər - yeni gərginlik nöqtələrinin yaranması və uzunmüddətli mövcud münaqişələr beynəlxalq davranış strukturuna təhdid təşkil edir. Bu, həmçinin beynəlxalq hüquqa təhdiddir. Beynəlxalq hüquqa və normalara hörmət edilməyəndə və beynəlxalq təşkilatların qətnamələri nəzərə alınmayanda ölkələrin ərazi bütövlüyü pozulur.

İşğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız - hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir. Mən dəfələrlə demişəm ki, biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl paraflandı və birgə bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur.

Biz Ermənistana müxtəlif istiqamətlərdən malların daşınmasına qoyulmuş bütün məhdudiyyətləri aradan qaldırdıq. Hətta Ermənistanla ticarəti bərpa etmişik. Onlar üçün həyati əhəmiyyət kəsb edən neft məhsullarının ixracına başladıq və bununla da göstərdik ki, biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik. Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir. İkinci Qarabağ Müharibəsi və daha sonra anti-teror əməliyyatı zamanı bizi ittiham edənlər ya uzaqgörən deyildilər, ya da qərəzli idilər. Çünki bizim gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğun idi, biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk.

Bəzən bunu etmək zəruridir, xüsusilə də əmin olduğunuz halda ki, haqlısınız. O zaman sizi əngəlləməyə çalışanları, maraqlarınıza xələl gətirmək istəyənləri nəzərə almamalısınız. Həmçinin hesab edirəm ki, bu, müharibə aparanlarla paylaşa biləcəyimiz daha bir təcrübədir.

Biz Ermənistanla sülhə nail olduq, - biz deyərkən Azərbaycanı nəzərdə tuturam, - israr etdik ki, bunu vasitəçilərsiz təmin edək. Özlərini Minsk qrupu adlandıran vasitəçilərin 28 illik fəaliyyəti bir fəlakət idi. Həmsədrlərin məqsədi münaqişəni dondurmaq, onu əbədiləşdirmək və hər iki ölkəyə qarşı təzyiq aləti kimi istifadə etmək idi. Biz qərara gəldik ki, bu dırnaqarası vasitəçilikdən qurtulmalıyıq və ikitərəfli formatda - heç bir üçüncü tərəf olmadan fəaliyyətə başlayan kimi sülhə nail olduq. Beləliklə, bu bir təcrübədir və bu, sadəcə nəzəriyyə deyil, bu, bizim yaşadığımız, indi isə şahid olduğumuz bir reallıqdır. Hesab edirəm ki, mövcud münaqişələrin həlli istiqamətində çalışarkən bu məsələ mütləq nəzərə alınacaq.

Xüsusilə indi paylaşa biləcəyimiz digər vacib bir təcrübə enerji təhlükəsizliyidir, hansı ki, hazırda müəyyən dərəcədə pozucu təsir göstərir. Biz görürük ki, neft və qaz qiymətlərinin kəskin yüksəlişi yalnız istehlakçılar üçün deyil, geniş mənada bir çox problemlər yaradır. Kimsə düşünürsə ki, bu tarazlaşdırılmamış qiymət neft istehsalçıları və ixracatçıları üçün faydalıdır, bu yanlışdır. Çünki bir çox ölkələrin, neft və digər faydalı yanacaq istehsal və ixrac edən ölkələrin suveren fondları var və bu fondlar müxtəlif maliyyə alətlərinə, o cümlədən istiqrazlara investisiya qoyurlar. Birjalar çökdükdə isə bu ölkələr yüksək neft qiymətindən qazandıqlarından daha çox itkiyə məruz qalırlar. Buna görə də biz OPEC+ formatının məsuliyyətli üzvü olaraq, tarazlı və proqnozlaşdırıla bilən neft qiymətinin tərəfdarıyıq, ortaq həllin tapılmasına böyük səylər göstərmişik və OPEC+-dakı vasitəçilik fəaliyyətimiz yüksək qiymətləndirilir.

Bu gün enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsi olaraq əvvəllər heç vaxt olmadığı qədər önəm daşıyır. Azərbaycan bütün enerji seqmentlərinin - neft, qaz, neft məhsulları, neft-kimya məhsulları və elektrik enerjisinin istehsalı və ixracı ilə məşğuldur. Bazarda tələb və tədarük coğrafiyasının genişlənməsi ilə bağlı biz ixracımızı, xüsusilə təbii qaz və elektrik enerjisinin ixracını artırmağı planlaşdırırıq. Keçən il - düz bir il əvvəl görüşdüyümüz zaman bizdən qaz alan ölkələrin sayı 12 idi. Bir il ərzində bu göstərici 16-ya yüksəldi və onların hamısı Azərbaycandan qazı boru kəmərləri vasitəsilə alır. Beləliklə, boru kəmərləri vasitəsilə təbii qaz ixracatçısı kimi, ölkələrin coğrafi əhatəsinə görə Azərbaycan dünyada birinci yerdədir. İxrac həcmi artmaqda davam edir və artacaq, bu isə bir çox ölkə üçün enerji təhlükəsizliyi baxımından mühüm amildir. Azərbaycan beynəlxalq bazara etibarlı neft təchizatçısı kimi enerji təhlükəsizliyinə töhfəsini verməyə davam edəcək.

Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır. Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır.

İndi isə biz mövcud dəhlizlərin yükaşırma qabiliyyətinin artırılmasına əlavə vəsait yatırırıq, çünki Azərbaycan ərazisindən istifadəyə tələbat artır. Biz bir çox ölkələr, həm Azərbaycanın şərqində, həm də qərbində yerləşən ölkələrin mühüm tranzit ehtiyaclarını təmin edirik. Hazırda isə Ermənistanla sülh edildikdən sonra Orta Dəhlizin yeni istiqaməti üzərində yaxından işləyirik, bu istiqamət Ermənistan ərazisindən keçəcək. Ermənistan isə bu gün belə olmadığı halda, müstəqil tarixində ilk dəfə tranzit ölkəsi olacaq. Bu isə bizə Azərbaycanın iki hissəsini - əsas hissəsi və Naxçıvan Muxtar Respublikasını davamlı nəqliyyat, enerji, optik kabel və elektrik xətləri, həmçinin potensial olaraq boru kəmərləri vasitəsilə birləşdirməyə imkan verəcək. Beləliklə, bu, bizim üçün, yəni ümumilikdə hamı üçün qarşılıqlı uduşlu vəziyyət yaradacaq.

Bu yeni fürsətdən həqiqətən yararlanmaq olar, çünki biz Azərbaycanın iki hissəsini nəqliyyat infrastrukturu ilə birləşdirəcəyik. Artıq qeyd etdiyim kimi, yeni istiqamət yaradacağıq, bu isə bir çox ölkə üçün faydalı olacaq. Vaxtınızı çox almamaq üçün çıxışımı burada yekunlaşdıracağam, yalnız təcrübəmizin olduğu məsələlərə və bu gün beynəlxalq gündəmin birnömrəli mövzularına toxunmaq istədim.

Son olaraq, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi İdarə Heyəti ilə əməkdaşlığımıza qayıdaraq, bir daha onları təbrik etmək və COP29-un uğurlu keçirilməsinə verdikləri töhfəyə görə minnətdarlığımı bildirmək istərdim. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ondan çox panel müzakirəsi təşkil etmiş, çoxsaylı müzakirələrdə iştirak etmiş və COP29-un uğuruna fəal töhfə vermişdir.

Bu il biz daha bir vacib qlobal beynəlxalq tədbir - Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətini və bütün kollektivini Forumda fəal iştiraka dəvət edirəm. Ümid edirəm ki, bir neçə aydan sonra Bakıda sizlərlə görüşüb dünyada sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi kimi ortaq məqsədimizə dair müzakirələrimizi davam etdirəcəyik. Diqqətinizə görə təşəkkür edirəm.



# Azərbaycan iqtisadiyyatı cüzi böyüyüb

***Bu ilin yanvar-fevral aylarında Azərbaycanda 18 milyard 473,1 milyon manatlıq və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 0,3 % çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub.***

Bu barədə "Unikal"a Dövlət Statistika Komitəsindən məlumat verilib. Məlumata görə, son 1 ildə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 % azalıb, qeyri neft-qaz sektorunda isə 1,4 % artıb.

ÜDM istehsalının 32,7 %-i sənaye, 11,4 %-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 7,5 %-i nəqliyyat və anbar təsərrüfatı, 3,9 %-i tikinti, 3,2 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 %-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 %-i informasiya və rabitə sahələrinin, 24,1 %-i digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 12,3 %-ini təşkil edib.

# Dilənçiliklə məşğul olanlar cərimələnəcək

***Dilənçiliklə məşğul olanlar cərimələnəcək, inzibati həbs ediləcək.***

"Unikal"ın xəbərinə görə, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin bu gün videokonfrans formatında keçirilən birgə iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən yeni - 523-1-ci maddədə əksini tapıb.

Layihəyə əsasən, dilənçiliklə məşğul olmağa görə xəbərdarlıq ediləcək, yaxud yüz manatdan iki yüz manatadək məbləğdə cərimələnəcək və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on günədək müddətə inzibati həbs tətbiq olunacaq.

Yetkinlik yaşına çatmayan şəxsin dilənçiliyə cəlb edilməsinə görə iki yüz manatdan beş yüz manatadək məbləğdə cərimə ediləcək və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət sayılmadıqda on beş günədək müddətə inzibati həbs tətbiq olunacaq.

# Vətəndaşlar onlayn kredit götürülməsini birdəfəlik bloklaya biləcəklər

***"Maliyyə-bank sektorunda kibercinayətlərin və onlayn fırıldaqların qarşısını almaq üçün yeni mexanizmlər hazırlanıb. Aidiyyəti qurumlarla real vaxt rejimində məlumat mübadiləsi aparan sistem qurulub, FIN-CERT strukturu yaradılıb və banklar üçün daha sərt təhlükəsizlik tələbləri hazırlanır".***

"Unikal" xəbər verir ki, bunu İKT üzrə ekspert Osman Gündüz sosial şəbəkə hesabında yazıb. O bildirib ki, onlayn kreditlərlə bağlı "STOP" xidməti də işə salınacaq:

"Bu xidmət vasitəsilə vətəndaşlar bank sistemində özləri üçün onlayn kredit götürülməsini birdəfəlik bloklamaq imkanı əldə edəcəklər. Xatırladıram ki, qonşu ölkələrdə bu xidmət xeyli öncədən təqdim edilir".

# "Dollar heç vaxt manata qarşı ucuzlaşmayacaq"

## Xalid Kərimli: "Bu, müharibənin müddətindən, davamlılığından asılıdır, əgər uzun müddət davam edərsə, neft qiymətləri 150 dollara çata bilər"

***Iqtisadçı-ekspert Xalid Kərimli "Unikal"a müsahibə verib. O, dünya bazarında neft qiymətlərinin kəskin bahalaşmasının hansı müsbət-mənfi tərəflərinin olmasından, hansı həddə qədər bahalaşacağından, dolların ucuzlaşma ehtimalından və xaricdən idxal edilən məhsulların qiymətinin necə olacağından danışıb.***



-Xalid müəllim, hazırda dünya bazarında neft qiymətləri kəskin bahalaşıb. Bir neçə gün ərzində belə artımın baş verməsinin hansı müsbət və mənfi tərəfləri var?

-Neft qiymətlərinin bahalaşmasının müsbət tərəfi odur ki, hər 10 dollar orta illik bahalaşma Azərbaycana 2,2 milyard manat gəlir gətirir. Burada gündəlik bahalaşmadan söhbət getmir. Bu hesablamalar illik satışın həcminə görə aprılır. Yəni, ölkənin gəliri 2,2 milyard manat artır. Bunun 1,8 milyard manatı Dövlət Neft Fondunun, 400 milyon manatı isə dövlət büdcəsinin gəlirlərini artırır. Bu bahalaşma Hörmüz boğazı ilə əlaqədardır. Oradan həm də tankerlər vasitəsilə qaz ixrac edilir. Neft qiymətlərinin artmasının mənfi tərəfi odur ki, bahalaşan nefti Avropa, Çin, Türkiyə və s. ölkələr alır, baha məhsul istehsal edərək satır. Bu zaman inflyasiya artır. Dövlətin gəliri artır, amma əhalinin xərcləri də çoxalır. Yəni, inflyasiya gəlir. Ona görə ki, nefti baha alıb məhsulu ucuz satmırlar. Bu zaman məhsulu da bahalaşdırıb satırlar. Avropadan, Çindən, Türkiyədən və Rusiyadan gələn məhsullar bahalaşır.

-ABŞ-İsrail və İran müharibəsi davam etdikcə neft qiymətlərinin hansı həddə qədər bahalaşması gözlənilir?

-Bu, müharibənin müddətindən, davamlılığından asılıdır. Əgər uzun müddət davam edərsə, neft qiymətləri 150 dollara çata bilər. Hazırda qiymət 100 dolları ötüb. Müharibə 1 həftə ərzində dayanarsa, neft qiymətləri kəskin düşə bilər. Burada söhbət 70-80 dollardan gedir. Hər şey müharibənin nə qədər davam edəcəyindən asılıdır. Əvvəl deyirdik ki, Hörmüz boğazı bağlanacaq ya yox. Görünən odur ki, bağlanıb.

-Azərbaycan iqtisadiyyatı üçün neftin dünya bazarındakı qiyməti mühüm rol oynayır. Neft gəlirlərinin artması ölkəyə daxil olan valyuta həcminə birbaşa təsir göstərir. Bu baxımdan dollar manata qarşı ucuzlaşa bilərmi?

-Xeyr, dollar heç bir vaxt manata qarşı ucuzlaşmayacaq, həmişə belə qalacaq. İlk növbədə neft qiymətlərinin bahalaşması müvəqqəti prosesdir. Digər tərəfdən hökumətin heç vaxt siyasəti olmayacaq ki, manatı daha da bahalaşdırsın. Dolların manat qarşısında ucuzlaşması iqtisadiyyatda inflyasiyanı aşağı sala bilər. Eyni zamanda, iqtisadiyyatı daha da bahalaşdıra bilər. Yəni, neftin qiyməti bu gün bahalaşıb, sabah enməsi mümkündür.

-İran Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Müharibəyə görə İran bütün ərzaq və kənd təsərrüfatı məhsullarının ixracına qadağa qoyub. Bu addım ölkəmizin ərzaq idxalına və bu məhsulların qiymətinə necə təsir edəcək?

-Bu, qiyməti bahalaşdıracaq. İrandan tranzit kimi istifadə edilməməsi qiymətləri bahalaşdıran məsələdir. Biz həm də İran üzərindən Çindən və digər Şərq ölkələrindən məhsullar gətirirdik. İran tranzitinin, Bəndər Abbas limanının işləməməsi daşıma xərclərini kəskin artırır. Tək İrandan gələn məhsullar deyil, idxal olunan bütün məhsulların daşıma xərcləri çoxalır və qiymətlər bahalaşacaq.

***Anar Kəlbiyev***

# Uşağı döyən valideyn və müəllimlər cərimələnəcək - 600 manatadək

***Uşaqlarda aşkarlanan zorakılıq əlamətləri barədə məlumat verilməməsinə görə cərimə tətbiq olunacaq.***



"Unikal"ın xəbərinə görə, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin bu gün videokonfrans formatında keçirilən birgə iclasında müzakirəyə çıxarılan İnzibati Xətalar Məcəlləsinə təklif edilən yeni - 189-4-cü və 189-5-ci maddələrdə əksini tapıb.

Beləliklə, təklif edilən 189-4-cü maddəyə əsasən, uşaqda zorakılıq hərəkətlərinin əlamətlərinin aşkar edilməsi barədə məlumatın valideynlər (onları əvəz edən şəxslər), habelə uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrinin və penitensiar müəssisələrin işçiləri tərəfindən aidiyyəti hüquq mühafizə orqanlarına və ya ərazi üzrə aidiyyəti uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya verilməməsinə görə fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğdə, vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə ediləcək.

Təklif olunan 189-5-ci maddəyə görə, təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrində və penitensiar müəssisələrdə uşaqlara, o cümlədən uşaqların bir-birinə qarşı davamlı təzyiq və aqressiv davranışının qarşısının alınmamasına görə fiziki şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan altı yüz manatadək məbləğdə cərimə olunacaq.

# Vüqar Qurbanovun kadrları səksəkə içində

## TƏBİB-in hansı yüksəkvəzifəli şəxsləri öz postları ilə vidalaşmalı olacaqlar? - Sensasiyalı təfərrüatlar!



***Vüqar Qurbanov Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru vəzifəsindən azad edilməsindən sonra bu qurumda genişmiqyaslı kadr islahatlarına start veriləcəyi gözlənilir. Belə ki, TƏBİB-in bəzi yüksəkvəzifəli şəxsləri öz postları ilə vidalaşmalı olacaqlar. Bu barədə "Unikal"a etibarlı mənbələrdən məlumat daxil olub.***

Məlumatda deyilir ki, xüsusilə qurumun bir sıra şöbələrinin birləşdirilməsi gündəmdədir: "Sözügedən addım qurumun fəaliyyətinin optimallaşdırılmasına və çevikliyinə, eyni zamanda resurslarından daha səmərəli istifadə olunmasına, həmçinin xeyli məbləğdə maliyyə vəsaitinə qənaət edilməsinə gətirib şıxarardı".

Mənbəmiz əlavə edib ki, TƏBİB-in strukturuna daxil olan tibb mərkəzlərinin rəhbərliyində də dəyişikliklər qaçılmazdır. "Söhbət ilk növbədə qurumun Bakı üzrə Xəzər Tibb Mərkəzi, Xətai Tibb Mərkəzi, Nizami Tibb Mərkəzi, Nərimanov Tibb Mərkəzi, Binəqədi Tibb Mərkəzi, Lökbatan Tibb Mərkəzi, Suraxanı Tibb Mərkəzi, Sabunçu Tibb Mərkəzi, Pirallahı Tibb Mərkəzi, Qaradağ Tibb Mərkəzi kimi iri səhiyyə müəssisələrindən gedir. Bu müəssisələrin bir çoxlarının rəhbərliyinə təyinat vaxtilə Vüqar Qurbanovun şəxsi kriteriyaları, ona yaxınlıq və bağlılıq kimi prinsiplərlə həyata keçirilib. Nəticədə paytaxtın adıçəkilən rayonlarından çoxunda vətəndaşlara səhiyyə xidmətinin səviyyəsi hələ də ürəkaçan səviyyədə deyil. Həmin rayonların tibb mərkəzlərinin rəhbərləri yəqin ki, vəzifələri ilə vidalaşmalı olacaqlar".

Mənbəmiz onu da bildirib ki, TƏBİB-in sabiq rəhbəri V.Qurbanovun vəzifədən azad edilməsinə dair qərarın rəsmən elan olunmasına baxmayaraq, bunun səbəbləri barədə ictimaiyyətə geniş açıqlama verilməməsi anlaşılandır. "Qurbanovun fəaliyyət dövrünün təftişi ilə bağlı nəticələr hələ də araşdırılmaqdadır. Bu araşdırmalar yekunlaşınca biz onun dövründə adıçəkilən qurumda hansı ciddi pozuntulara, nöqsanlara yol verildiyinə dair konkret faktlarla tanış ola biləcəyik. "Yadınızdadırsa, 2025-ci ilin sentyabrında Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən TƏBİB-də yoxlamaların aparılması ilə bağlı məlumatlar yayılmışdı. Bizim qəzet də Vüqar Qurbanovun vəzifədən kənarlaşdırılmasının sözügedən yoxlamaların nəticəsi ilə əlaqəli olmasını istisna etmişdi. Elə TƏBİB-in koridorlarında da bu fikir hakimdir. Maliyyə Nazirliyinin yoxlamaları nəticəsində ciddi maliyyə pozuntularının aşkarlandığını, milyonlarla manatlıq vəsaitin mənimsənilməsinin üzə çıxdığını çoxları bilir. Yəqin ki, yoxlamaların nəticələrinin tam analizindən sonra biz həmin pozuntuların ictimailəşməsinin şahidi olacağıq" deyə qaynağımız əlavə edib.

Xatırladaq ki, Vüqar Qurbanovun "vurulmasının" ardından "Unikal" olaraq yazmışdıq ki, ortadakı müəyyən iddialar TƏBİB-də rəhbər dəyişikliyinin yalnız işdən azadetmə ilə yekunlaşmayacağı təəssüratı yaradır. Məsələnin adi kadr dəyişikliyi çərçivəsindən xeyli kənara çıxdığı yönündə fikirlər dolaşır. Hətta TƏBİB-in sabiq rəhbərinin yaxın günlərdə hüquq-mühafizə orqanları tərəfindən məsuliyyətə cəlb ediləcəyi, həbsinin qaçılmaz olduğu iddiaları səslənir. Bu cür fikirlərin təsadüfi olmadığını bildirən mənbəmiz qeyd edib ki, Vüqar Qurbanov etimadı əsla doğrultmayıb. "TƏBİB-in əvvəlki rəhbəri Ramin Bayramlının 2021-ci ildəki istefasını unutmayaq. Həmin vaxt o, ciddi korrupsiya, rüşvət ittihamlarının ortaya çıxmasının, eyni zamanda qurumda aparılan yoxlamalar zamanı yeyinti hallarının aşkarlanmasının ardınca kreslosu ilə vidalaşmalı olmuşdu. Gözləmək olardı ki, onun xələfi öz sələfinin yolu ilə getməyəcək. Bayramlının başına gələnlərdən dərs alacaq. TƏBİB-lə bağlı neqativliklər aradan qaldıracaq. Ancaq təəssüf ki, bu, baş vermədi. Qurbanovun TƏBİB rəhbəri postunun ağırlığını qaldıracaq çapda kadr olmadığını düşünənlər haqlı çıxdı. Bütün deyilənlərin fonunda onun hətta cinayət məsuliyyətinə cəlb ediləcəyi yönündə söz-söhbətlərə belə təəccüblənməmək lazımdır" - deyə mənbəmiz fikirlərini yekunlaşdırıb.

Xatırladaq ki, Vüqar Qurbanovun sələfi Ramin Bayramlının vəzifəsindən uzaqlaşmasında qurumdakı korrupsiya faktlarının ciddi rolu olduğu hələ 2021-ci ildən yazılır. Belə ki, Hesablama Palatasının adıçəkilən qurumda ilk dəfə yoxlama keçirməsinin ardından 2021-ci ildə Bayramlı cəmi iki ildir tutduğu postdan kənarlaşmışdı. Onun istefasının məhz yoxlama zamanı ciddi yeyinti hallarının aşkarlanması ilə bağlı olduğuna dair iddialar vardı. Lakin Bayramlı yalnız vəzifəsini itirməklə canını qurtara bildi. TƏBİB-dəki son rəhbər dəyişikliyinin ardınca ortaya atdığımız sual hələ də aktualdır: bəs Vüqar Qurbanov necə, o da sələfi kimi təkcə işsiz qalmaqla düşdüyü vəziyyətdən çıxa biləcəkmi?!

***Sənan Mirzə***

# Azərbaycanda könüllü kredit qadağası olacaq




***Azərbaycanda könüllü kredit qadağası mexanizminin tətbiqi üzrə işlər yekunlaşma mərhələsindədir. Bu mexanizm vasitəsilə vətəndaşlar öz adlarına məsafədən kreditlərin verilməsinə məhdudiyyət qoymaq imkanı əldə etmiş olacaq, bu isə öz növbəsində fırıldaqçılıq risklərini əhəmiyyətli dərəcədə azalmasına xidmət edəcəkdir.***

"Unikal" xəbər verir ki, bu barədə Mərkəzi Bank sədrinin müavini Toğrul Əliyev "Müasir rəqəmsal dünyada istehlakçılar: elektron ticarət, rəqəmsal xidmətlər və təhlükəsizlik" mövzusunda keçirilən forumda deyib.

O bildirib ki, rəqəmsal fırıldaqçılıq risklərinin azaldılması məqsədilə Mərkəzi Bank tərəfindən Mərkəzləşdirilmiş məlumat mübadiləsi sisteminin yaradılması istiqamətində də işlər aparılır.

"Bu sistem, banklar, ödəniş təşkilatları və digər səlahiyyətli qurumlar arasında operativ məlumat mübadiləsini təmin edəcək və fırıldaqçılıq hallarına daha sürətli reaksiya verilməsinə imkan yaradacaq. Mərkəzi Bank maliyyə institutlarının bazar davranışlarının hüquqi tənzimlənməsinin inkişaf etdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirir. Bu məqsədlə, qabaqcıl təcrübəyə uyğun olaraq, beynəlxalq ekspertlər cəlb olunmaqla "Maliyyə institutlarının bazar davranışlarına dair Metodoloji Rəhbərlik" layihəsi hazırlanıb. Bu sənəd, maliyyə sektorunda şəffaflıq və ədalətli biznes davranışlarını təmin etməyə yönəlib və maliyyə institutları üçün məsuliyyətli davranış standartlarını müəyyən edir. Bununla yanaşı, nəzarət mexanizmlərinin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi və bazar davranışlarına risk əsaslı nəzarət modelinin tətbiqi planlaşdırılır ki, bu da istehlakçılar üçün daha yüksək risk yaradan məhsul, xidmət və institutlara daha intensiv nəzarətin həyata keçirilməsinə imkan verəcəkdir.Bütün bunlar, maliyyə istehlakçılarının hüquqlarının daha etibarlı şəkildə qorunması üçün şərait yaradacaq", - deyə Toğrul Əliyev vurğulayıb.

T.Əliyev qeyd edib ki, Mərkəzi Bank maliyyə istehlakçılarının hüquqlarının qorunması sahəsində beynəlxalq əməkdaşlığı genişləndirir: "Bu çərçivədə Mərkəzi Bank ötən ilin oktyabr ayında Maliyyə İstehlakçılarının Müdafiəsi üzrə Beynəlxalq Təşkilat olan "FinCoNet" təşkilatına tamhüquqlu üzv qəbul edilmişdir. Bu üzvlük rəqəmsal maliyyə xidmətləri sahəsində istehlakçı hüquqlarının qorunması üzrə qabaqcıl beynəlxalq təcrübənin ölkəmizdə tətbiqinə imkan yaradır. Eyni zamanda, Mərkəzi Bank İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Təhsili üzrə Beynəlxalq Şəbəkəsinə - OECD-INFE platformasına üzv olub. Bu əməkdaşlıq maliyyə savadlılığının artırılması və istehlakçıların məlumatlılığının yüksəldilməsi istiqamətində yeni imkanlar yaradır".(Azərtac)

# İnfluenser və bloqerlərlə bağlı yeni tənzimləmələr tətbiq olundu




***Azərbaycanda İnfluenserlərin və bloqerlərin istifadə etmədiyi məhsulları reklam etməsi qadağan edilib.***

"Unikal" xəbər verir ki, bunu Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin İstehlak bazarına nəzarət şöbəsinin müdiri Yusif Taptıqlı bildirib.

Onun sözlərinə görə, ötən il "Reklam haqqında" Qanununa edilən dəyişikliklər nəticəsində rəqəmsal platformalarda fəaliyyət göstərən influenser və bloqerlərlə bağlı yeni tənzimləmələr tətbiq olunub.

"Dəyişikliklərə əsasən influenserlərin özlərinin istifadə etmədiyi məhsulları istifadə edirmiş kimi təqdim edərək reklam etməsi qadağan olunub. Qanuna edilən dəyişikliklər həmçinin qanunsuz qumar oyunlarının və qeydiyyatdan keçməmiş stimullaşdırıcı lotereyaların reklamının yayılmasının qarşısını almağa yönəlib. Bu tənzimləmələr istehlakçıların aldadılmasının qarşısını almaq və reklam bazarında şəffaflığı artırmaq məqsədi daşıyır".



## "Avropa Naxçıvan vasitəsilə Şərqə asan çıxış imkanları əldə edəcək" - Deputat

***"Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. 2025-ci ildə Azərbaycanın 43 milyard 830 milyon dollarlıq ticarət dövriyyəsinin 42 faizindən çoxu Avropa İttifaqının payına düşüb. Azərbaycanın 22 milyard 642 milyon dollarlıq ümumi ixracının isə 69 faizi ittifaq dövlətlərinə yönəlib".***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, xarici ticarət dövriyyəsinin 1/4 ittifaqa üzv olan İtaliyanın payına düşür:

"İllik 25.2 milyard kubmetrlik qaz ixracının 12,8 milyard kubmetri Avropaya nəql edilir. Azərbaycanın təbii qaz ixrac etdiyi dövlətlərdən 10 ölkənin Avropa İttifaqının üzvləri olması ölkəmizin Avropanın enerji bazarında mühüm tərəfdaş kimi mövqeyinin güclənməsi anlamına gəlir. Azərbaycan son 5 ildə Avropaya 56 milyard kubmetrdən çox təbii qaz nəql edilib. Azərbaycan Avropa İttifaqına təbii qaz ixrac edən ölkələr arasında ilk beşlikdə qərarlaşıb. Artıq Azərbaycan qazı Mərkəzi və Şərqi Avropa ilə yanaşı, Qərbi Avropa bazarına daxil olmaqdadır. Yeni mərhələdə Azərbaycan öz yaşıl enerjisini də Avropa bazarına çıxaracaq. Gürcüstan ərazisi və Qara dənizin dibi ilə Azərbaycanda bərpa olunan mənbələrdən əldə edilən enerji 2027-ci ildən sonra Avropa İttifaqına ixrac edilə bilər. Bu o deməkdir ki, növbəti mərhələdə Azərbaycan yalnız ənənəvi resursları deyil, həmçinin innovativ enerji məhsulları ilə də Avropaya bazarına daxil olacaq.

Azərbaycan həmçinin Avropa ilə Mərkəzi Asiya arasında körpü rolunu oynayır. Regional nəqliyyat dəhlizlərinin genişlənməsi və eləcə də Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə bağlı müzakirələrin intensivləşməsi ölkə üzərindən daşınan yüklərin həcmini artıracaq. Avropa Şərqə Naxçıvan vasitəsi ilə daha asan çıxış imkanları əldə edəcək. Bütövlükdə, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın ölkəmizə səfəri və müzakirə edilən məsələlər Azərbaycanın geosiyasi mövqeyinin daha da gücləndiyini təsdiq edir. Regiondakı yeni düzən əməkdaşlıq üçün mühüm imkanlar yaratmaqdadır".

***Anar Kəlbiyev***

## Antonio Koştanın Azərbaycana səfəri başa çatıb

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Azərbaycan Respublikasına rəsmi səfəri martın 12-də başa çatıb.

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının və Avropa İttifaqının bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanı Baş nazirin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər yola saldılar.

# Azərbaycanda bəzi banklara bağlanma şoku...

## Ramiz Mehdiyev ailəsinin BOKT-a çevrilən "BTB"sinin ardından növbədə hansı banklar var?

***Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin bir neçə gün öncə qəbul etdiyi qərarla, qanunvericiliyə müvafiq olaraq, "Bank BTB" ASC-nin müraciəti əsasında onun bank olmayan kredit təşkilatına (BOKT) çevrilməsi formasında yenidən təşkilinə qabaqcadan razılıq verilib.***

AMB-nin məlumatına görə, bu çevrilmə istiqamətində zəruri tədbirlər "Bankların yenidən təşkili haqqında Qaydalar" ilə müəyyən edilmiş prosesə uyğun olaraq tənzimləyici qurumun nəzarəti altında həyata keçiriləcək. Bu çərçivədə, "Bank BTB" ASC ilə aktivlərinin həcminə görə ölkənin ən iri bankı olan "Azərbaycan Beynəlxalq Bankı" ASC (ABB) arasında "Aktivlərin və passivlərin ötürülməsi haqqında müqavilə" imzalanıb. Bu müqaviləyə uyğun olaraq "Bank BTB"də müddətli və tələbli depozitləri olan fiziki və hüquqi şəxslərin razılığı ilə onların depozitlərinə qüvvədə olan şərtlər dəyişdirilmədən ABB-də xidmətin davam etdirilməsi, yaxud ABB tərəfindən onların depozitlərinin geri qaytarılması təmin olunacaq. Həmçinin, Bank "BTB"yə kredit borcu və ya digər öhdəlikləri olan müştərilərə qarşı tələb hüquqları ABB-yə ötürüləcək və ödənişlərin qəbulu ABB tərəfindən həyata keçiriləcək. Sözügedən məsələlərlə bağlı müştərilərə məlumatlar ABB və "Bank BTB" ASC tərəfindən müvafiq kommunikasiya kanalları vasitəsilə çatdırılacaq.

Beləliklə, Bank "BTB" ASC-nin yenidən təşkili bankın kreditorları, o cümlədən əmanətçiləri üçün heç bir təhdid yaratmır.

Bank "BTB" ASC-nin ölkənin bank sisteminin aktivlərində xüsusi çəkisi cəmi 0.6%, kredit portfelində 0.9%, sektorun öhdəliklərində isə 0.6% təşkil edir.

"Unikal" xatırladır ki, adıçəkilən bank "Ramiz Mehdiyevin bankı" kimi də tanınır. 2010-cu ildə yaradılan bankın əsas səhmdarı Prezident Administrasiyasının keçmiş rəhbəri Ramiz Mehdiyevin gəlini Nigar Mehdiyeva(74,99%) olub. Digər səhmlər isə 19,01% payla Müşahidə Şurasının sədri Rza Sadiq və 6% payla Tükəzban Mahmudovaya aid idi.

R.Mehdiyev hazırda dövlət çevrilişinə cəhddə və dövlətə xəyanətdə ittiham olunur.

Onu da bildirək ki, Tibb Universitetinin Onkoloji Klinikasının da direktor müavini olan həkim-onkoloq Nigar İsmayıl qızı Mehdiyeva və Rza İsmayıl oğlu Sadiq uzun illər Nazirlər Kabinetində yüksək vəzifələrdə çalışan İsmayıl Rza oğlu Sadıqovun övladlarıdır.

Bank "BTB"nin BOKT-a çevrilməsinin ardından Azərbaycanda qarşıdakı dövrdə bəzi bankların bağlanacağına dair iddialar gündəmə gəlib. Lakin hələlik həmin bankların adı açıqlanmayıb. Belə ki, Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Orucun sözlərinə görə, yaxın zamanlarda daha iki bankın bağlanacağını söyləmək olar: "Bunu müəyyənləşdirmək üçün banklar sistemini nəzərdən keçirmək kifayətdir. Çünki indiyə qədər bağlanan bankların tarixçəsində borc və maliyyə problemləri qabarıq olub" (lent.az).

İqtisadçı bildirib ki, Azərbaycanda bank sistemi növbəti inkişaf dövrünə qədəm qoyub: "Sıradan çıxan, bağlanan banklar heç də güclü olmayıblar, onlar zərərlə işləyən, problemli portfeli ağırlıq təşkil edən banklar olub. Fikrimcə, belə bankların bağlanması, formasını dəyişməsi zəruri idi. Bankların Bank Olmayan Kredit Təşkilatına (BOKT) çevrilməsi onların bu günə qədərki göstərdikləri fəaliyyətin davam etməsi və funksiyalarının başqa formada yerinə yetirilməsidir.

BOKT-lar bir çox hallarda bankların müştəriləridir. Onlar banklardan aldıqları kapitalın üzərində müəyyən faiz qoymaqla əhaliyə satış edirlər. BOKT-ların əsas xüsusiyyəti odur ki, onlardan kredit götürmək hüquqi baxımdan daha tez başa gəlir. Buna görə də vətəndaşlar bir çox hallarda yüksək faizə önəm vermədən, prosesin tezliyi üçün BOKT-lara müraciət edir.

Kommersiya bankları likvidliyin qorunması üçün öz kredit siyasətlərində müəyyən mürəkkəbləşmə prosesi aparırlar. Buna görə də yüksək faizli BOKT-lar daha çox müştəri bazarına malikdirlər.

Həm banklar, həm də BOKT-lar kənardan, beynəlxalq donor təşkilatlarından satış üçün kapital əldə etsinlər. Bu həm ucuz başa gəlir, həm də faizlər ümumi məbləğə böyük təsir göstərmir. Daxili bazardan pul əldə etdikdə isə yüksək faizlər kreditin satışının əlçatanlığının aşağı olmasına səbəb olur".




Maraqlı bir məqamı da vurğulayaq: Mərkəzi Bank tərəfindən bu ilin fevral ayı üzrə Azərbaycanda barəsində ən çox şikayət edilən bankların siyahısı açıqlanıb və həmin siyahıda Mehdiyev ailəsinin BOKT-a çevrilən bankı ilk yeri tutub. Belə ki, yuxarı şikayət indeksində "BTB" Bank 3,36 indeksi ilə birincidir.

Sözügedən siyahıda daha sonra "AFB Bank" gəlir.

Onu da deyək ki, Mərkəzi Bank yerli banklara kapitalını Bazel III standartlarına uyğunlaşdırmaq üçün 1 il vaxt verib. Bazel III standartları əsasən bankların kifayət qədər kapitala malik olmasını nəzərdə tutur. Bu isə onların qarşısında duran kredit, bazar və əməliyyat riskləri qarşısında effektiv şəkildə idarə edilməsini nəzərdə tutur. Ekspertlər deyirlər ki, sözügedən standartlar dünyada bir çox ölkələrin bank sistemində artıq tətbiq olunub və Azərbaycan banklarının da əvvəl-axır bu tələblərə uyğunlaşması zərurət idi.

İqtisadçı-ekspert Əkrəm Həsənov ötən ay yerli KİV-ə açıqlamasında Bazel III standartlarına riayət etməyən banklara 1 il müddətində uyğunlaşmaq üçün vaxt verildiyini xatırladaraq demişdi: "Bu müddət ərzində standartlara əməl etməyən banklar üçün bir sıra tədbirlər nəzərdə tutulur. Ən sərt tədbir bankın bağlanması ola bilər. Amma bu son həddir. Alternativ olaraq, həmin bank digər sağlam banklarla birləşdirilə və ya satıla bilər".

Bir sözlə, son vaxtlar bəzi bankların bağlana, yaxud BOKT-a çevrilə biləcəyi yönündə iddialar yenidən qüvvətlənib. AMB-dən isə hələ ki, həmin iddialara münasibət bildirilməyib.

***Sənan Mirzə***

10_27 IYUl-QARA.qxd 3/12/2026 8:32 PM Page 10



# Məşhur sığorta şirkətlərindən şikayətlər pik həddə!

## Müştəriləri niyə onlardan narazılıq edirlər? - İlginc təfərrüatlar...

***Azərbaycanda son bir ayda ən çox şikayət edilən sığorta şirkətləri məlum olub. "Atəşgah Sığorta" 1,35 bəndlə siyahıda ön sıralarda olub. Şikayətlərin həcminə görə "Meqa Sığorta" da 1,34 bəndlə qırmızı zonada qərarlaşıb.***

Ümumiyyətlə, adları çəkilən hər iki sığorta şirkətinin adına ən çox şikayət edilənlərin siyahısında mütəmadi rast gəlinir.

"Atəşgah Sığorta" 1996-cı ildə yaradılıb. Onun nizamnamə kapitalı 5,009 milyon manatdır. Şirkətin səhmlərinin 63%-i "ISR Holding" MMC-yə, 27%-i "Ran-Exim" MMC-yə, 10%-i isə Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) məxsusdur.

Ötən il avqustun 22-də "Atəşgah" Sığorta Şirkəti ASC-nin Direktorlar Şurasının sədri vəzifəsinə Azər Allahverdi oğlu Əliyev təyin olunub. Həmin vaxt bildirilib ki, sığorta sahəsində zəngin təcrübəyə malik olan Azər Əliyev "Atəşgah" Sığorta Şirkətində müxtəlif rəhbər vəzifələrdə çalışıb. O, 2008-2010 və 2017-2022-ci illərdə şirkətin İdarə Heyətinin sədri, 2025-ci ilin may ayından isə Direktorlar Şurasının üzvü kimi fəaliyyət göstərib.

Bu arada yalnız yuxarıda adları çəkilən sığorta şirkətlərindən deyil, ümumilikdə ölkənin sığorta bazarındakı aktiv oyunçuların fəaliyyəti ilə bağlı da narazılıqların, giley-güzarın getdikcə artdığı müşahidə edilir. Yaxın vaxtlarda Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli demişdi ki, sığorta şirkətlərindən ən çox şikayətlər əsasən avtomobillərin icbari sığortası ilə bağlı olur: "Vətəndaşlar daha çox yol nəqliyyat hadisəsindən sonra dəyən zərərin düzgün qiymətləndirilməməsindən narazı qalırlar. Bir çox hallarda sığorta şirkətləri avtomobilə dəymiş zərəri real bazar qiymətindən aşağı hesablayır və təklif olunan ödəniş məbləği sığortalını qane etmir. Digər geniş yayılmış şikayət səbəbi sığorta ödənişlərinin gecikdirilməsidir. Hadisə baş verdikdən sonra sənədlər vaxtında təqdim olunsa belə, kompensasiyanın uzun müddət ödənilməməsi və ya prosesin əsassız şəkildə uzadılması narazılıq yaradır" (news365.az). Ekspert əlavə etmişdi ki, sənədləşmə prosesinin çətin və qarışıq olması da şikayətlərin artmasına səbəb olur: "Bəzən sığorta şirkətləri əlavə vətəndaş üçün çətin əldə olunan sənədlər tələb edir və bu da ödənişin ləngiməsi ilə nəticələnir. Şikayətlərin bir hissəsi də müqavilə şərtləri ilə bağlıdır. Sığorta müqaviləsindəki bəzi maddələr sığortalılar tərəfindən tam başa düşülmür və hadisə baş verdikdən sonra bu şərtlər əsas gətirilərək ödənişdən imtina edilməsi və ya məbləğin azaldılması narazılığa gətirib çıxarır".




Qeyd edək ki, "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nda əsas prioritetlərdən biri də sığorta sektorunun dayanıqlığının daha da gücləndirilməsidir. Strategiya sənədinə əsasən, sığorta sektoru üzrə vasitəçi və satış kanallarının (sığorta agentləri və brokerləri daxil olmaqla) genişləndirilməsi, könüllü və icbari sığortanın təşviqi, sığorta məlumat və monitorinq mərkəzinin yaradılması, eləcə də korporativ idarəetmənin gücləndirilməsi və risk əsaslı prudensial tənzimləmənin həyata keçirilməsi məsələləri nəzərdə tutulub. Hazırda 2026-cı ildir, sözügedən strategiyanın əhatə etdiyi son ilin üç ayı arxada qalıb, lakin belə görünür ki, Azərbaycanda sığorta xidmətlərindən narazılıqlar nəinki səngimir, əksinə güclənir. Bu isə bir sıra sığorta şirkətləri barədə qanunvericilik çərçivəsində daha sərt tədbirlərin görülməsini qaçılmaza çevirə bilər.

Onu da qeyd edək ki, 2025-ci ildə Azərbaycanda 15 sığorta şirkətindən 14-ü xalis mənfəət əldə etmiş, cəmi 1-i ötən ili zərərlə başa vurmuşdu. Sığortaçıların ümumi xalis mənfəəti 165.52 mln. manat təşkil etmişdi. Düzdür, bu, 2024-cü ilin 176.25 mln. manatlıq nəticəsindən 6% az idi, yeni sığorta bazarında ümumi mənfəət, əsasən, azalma tendensiyası göstərmişdi, lakin hər halda cəmi bir sığorta şirkəti istisna olmaqla digərlərinin ötən ili xalis mənfəətlə başa vurması önəmli məqamdır. Bununla belə, görünür, bəzi sığorta şirkətləri öz xalis mənfəətlərini vətəndaşları narazı salmaq hesabına əldə edirlər...

***Toğrul Əliyev***

# Buraxılış imtahanında 62 mindən çox şagird iştirak edəcək



***Martın 15-də Dövlət İmtahan Mərkəzi tərəfindən Bakı şəhərinin Qaradağ, Binəqədi, Xətai, Suraxanı, Yasamal rayonları, Abşeron (II hissə), Sumqayıt (II hissə), Gəncə (II hissə), Mingəçevir, Samux, Göygöl, Daşkəsən, Gədəbəy, Qazax, Tovuz, Sabirabad, Saatlı, İmişli, Biləsuvar, Göyçay, Şamaxı, Qobustan, İsmayıllı, Ağsu, Masallı, Astara, Yardımlı, Lerik, Ağcabədi, Beyləqan, Ağdam (o cümlədən Xıdırlı, Kəngərli kənd tam orta məktəbləri), Xocalı (Şəhər 1 nömrəli və Ballıca kənd orta məktəbi), Xankəndi (Şəhər 4 nömrəli məktəb), Şuşa (Şəhər 1 nömrəli məktəb), Laçın (Şəhər 2 nömrəli tam orta məktəb, Zabux və Sus kənd tam orta məktəbləri), Kəlbəcər (Şəhər 1 nömrəli tam orta məktəb), Qax, Balakən, Zaqatala, Quba, Xızı, Qusarda tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək.***

Bu barədə "Unikal"a DİMdən məlumat verilib. Bildirilib ki, martın 15-də Bakı şəhəri üzrə xüsusi məktəblərdə (internat məktəbləri, cəzaçəkmə müəssisələrində yerləşən məktəblər), tədrisi gürcü dilində olan məktəblərdə təhsil alanlar da imtahan verirlər.

İmtahan saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir). Şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

İmtahan iştirakçıları "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə DİM-in saytından martın 5-dən etibarən çap edib götürə bilirlər.

Xatırladaq ki, imtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 267 imtahan binası, 4645 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 267 ümumi imtahan rəhbəri, 767 imtahan rəhbəri, 5776 nəzarətçi, 807 buraxılışı rejimi əməkdaşı (mühafizə), 267 bina nümayəndəsi ayrılıb.

Martın 15-də keçiriləcək imtahanda 62033 şagirdin iştirakı nəzərdə tutulur.

İmtahanda 67 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) şagird də iştirak edəcək. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli şagirdlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir.

## Qarabağda "Kənddən Şəhərə" Novruz yarmarkası təşkil olunacaq




***Novruz bayramı ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən 12 məntəqədə "Kənddən Şəhərə" Novruz yarmarkası təşkil olunacaq.***

"Unikal" xəbər verir ki, Yarmarkaların təşkilində əsas məqsəd bayram günlərində yerli fermerlərin məhsullarının bazara çıxışını dəstəkləmək eyni zamanda şəhər sakinlərinin təbii, yerli və sağlam kənd məhsullarına əlçatanlığını təmin etməkdir.

Yarmarkalarda 25 regiondan iştirak edəcək 146 fermer, 145 çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcək. Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metrostansiyasının yanı) ünvanında olan yarmarkada hər gün Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilər.

Novruz yarmarkaları 09:00-dan 19:00-dək Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metrostansiyasının yanı) ünvanı ilə yanaşı, regionlar da daxil olmaqla ümumilikdə 11 əlavə məntəqədə təşkil ediləcək.

Belə ki, 13-17 mart tarixlərində paytaxtın müxtəlif ərazilərində - Əhmədli, Neftçilər, Nəriman Nərimanov, Azadlıq prospekti və Elmlər Akademiyası metrostansiyalarının çıxış hissələrində, eyni zamanda, regionlarda- Sumqayıt şəhəri (Kimyaçı mədəniyyət sarayının qarşısı), Xankəndi şəhəri (Tələbə şəhərciyinin yanı), Ağdaş şəhəri Heydər Əliyev prospekti 541 və Abşeron rayonunun Mehdiabad qəsəbəsində "Qarant" yaşayış kompleksi ərazisində Novruz bayramı yarmarkaları fəaliyyət göstərəcək.

Bundan əlavə, 16 mart tarixində Cəbrayıl rayonunun Horovlu kəndində, 17 mart tarixində isə Zəngilan rayonunun Ağalı kəndində səyyar yarmarkalar təşkil olunacaq.

Qeyd edək ki, keçiriləcək "Kənddən şəhərə" Novruz yarmarkalarında fermerlər piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla ödənişsiz şəkildə təmin olunacaqdır.

## Süni intellektlə seksual materiallar hazırlayanlar həbs olunacaq

***Qanunsuz olaraq süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə pornoqrafik və ya seksual məzmunlu foto, video və ya audio materialları hazırlayanlar və ya yayanlar həbs olunacaq.***



"Unikal" xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu, İnsan hüquqları komitələrinin bu gün videokonfrans formatında keçirilən birgə iclasında müzakirəyə çıxarılan Cinayət Məcəlləsinə təklif edilən yeni - 242-1-ci maddədə əksini tapıb.

Layihəyə əsasən, şəxsin razılığı olmadan, onun görüntüsündən və ya səsindən istifadə etməklə süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə pornoqrafik və ya seksual məzmunlu foto, video və ya audio materialları hazırlama və ya həmin materialları mediada, kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatlarında və ya informasiya-telekommunikasiya şəbəkələrində yayma üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

# İşbazların ağlasığmaz hoqqaları

## Azərbaycan bazarlarında misli görünməmiş saxtakarlıq: Gədəbəy kartofundan Kəlbəcər balınadək... - Şok faktlar!




***Bu günlərdə Milli Məclisin Aqrar siyasət komitəsinin "Kənd təsərrüfatında süni intellektin tətbiqi: nəticələr və perspektivlər" mövzusunda keçirdiyi ictimai dinləmədə deputat Naqif Həmzəyev ilginc fikirlər səsləndirib. Kəlbəcər rayonunda arıçılığın inkişafı üçün daha geniş şərait yaradılmasını məqsədəuyğun sayan Həmzəyev əlavə edib: "Kəlbəcər balının adı bu gün bazarda çox istifadə olunur və demək olar ki, hər üç bal satıcısından ikisi məhsulunu "Kəlbəcər balı" kimi təqdim edir. Lakin bu məhsulların hamısının həqiqətən Kəlbəcərdə istehsal olunub-olunmadığını nəzarətdə saxlamaq mümkün olmur".***

Deputat əlavə edib: "Bu baxımdan hesab edirəm ki, Kəlbəcər balının mənşəyi və keyfiyyəti ilə bağlı nəzarət mexanizmlərinin gücləndirilməsi vacibdir. Təklif olunur ki, bu məsələ ilə bağlı müvafiq dövlət qurumları, xüsusilə Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi tərəfindən tənzimləmə mexanizmləri hazırlanaraq tətbiq edilsin. Bu həm istehlakçıların qorunmasına, həm də həqiqi Kəlbəcər balı istehsal edən arıçılıq təsərrüfatlarının maraqlarının təmin olunmasına xidmət edər".

Qeyd edək ki, bir müddət əvvəl sosial şəbəkələrdə də bazarlarda Kəlbəcər balının adından sui-istifadə edildiyi müzakirə mövzusu olmuşdu. Müzakirəyə qoşulanlar bal satışı ilə məşğul olanların faktiki şəkildə brendə çevrilmiş Kəlbəcər balını istismar etmələrindən gileylənmişdilər.

Əslində Azərbaycan bazarlarında oxşar tendensiya xüsusilə son vaxtlar geniş yayılıb. Üstəlik, hədəf ancaq Kəlbəcər balı da deyil. Məsələn, götürək elə Gədəbəy kartofunu...

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ildə kartof istehsalı 924,7 min ton təşkil edib və bu göstərici 2024-cü ilə nisbətən 0,3 faiz azalıb. Nəzərə alaq ki, Azərbaycanın kartofa olan illik ehtiyacı 1,5 milyon tondur. Bunun da 200 min tonu toxumçuluq istiqamətində istifadə edilir. 1,3 milyon tonsa sırf əhalinin istehlakına gedir.

Rəsmi statistikaya görə Azərbaycan xarici ölkələrə də karof ixrac edir. Belə olan təqdirdə yerli istehsal ümumi tələbatın ancaq 60-65 faizini ödəyir. Halbuki pərakəndə məntəqələrində satılan kartoflar əsasən Gədəbəy, Şəmkir, Qusar və Tovuz məhsulu adı ilə təqdim edilir.Yaz kartofu isə əsasən Cəlilabad istehsalı adından bazara çıxarılır.

Bəs idxalın bu qədər yüksək olduğu şəraitdə bazarlarda təqdim olunan kartoflar doğrudanmı yerli məhsuldur? Məsələ ilə bağlı Bizim.Media-ya danışan "Meyvəli" topdansatış məntəqəsində çalışan Elçin adlı iş adamı deyib ki, daha çox idxal məhsulları satırlar: "Kartofu əsasən Türkiyədən, İrandan, Pakistandan və Gürcüstandan idxal edirik. Ucuz olduğuna görə İran və Pakistan kartofuna maraq böyükdür. Türkiyə və Gürcüstandan gətirilən kartof isə nisbətən bahadır. Bəzi pərakəndə satış məntəqələrində Türkiyə və Gürcüstandan idxal edilmiş kartofu yerli məhsul kimi təqdim edirlər. Çünki bu iki ölkədən gətirilən kartoflar daha hamar və təmiz olur. Amma İran və Pakistandan gələn kartofsa bir qədər torpaqlı olur..."

Başqa bir nümunə isə kərə yağları ilə bağlıdır. Onların əksəriyyəti bitki yağlarının və müxtəlif kimyəvi qatqıların qarışığından hazırlanır. Əsas problem isə ondan ibarətdir ki, belə yağlar adi marqarindən fərqli olaraq tərkibinə az miqdarda süd yağı əlavə edilməklə saxta kərə yağı kimi təqdim olunur. Bu isə istehlakçının məhsulu seçərkən yanılmasına səbəb olur. İnsanlar sağlam və keyfiyyətli qida aldığını düşünərək bu məhsulları əldə edir, yalnız istifadə zamanı həmin məhsulların kərə yağı olmadığını anlayırlar.

""Yeni Zelandiya" yağı Azərbaycanda idxaldan sonra qablaşdırılır. Yeni Zelandiya qablaşdırması ilə ölkədə yağ satılmır. Azərbaycandakı 200-250- 500 qramlıq qablaşdırmalar var ki, araşdırma aparılsa məlum olar ki, Yeni Zelandiyada belə bir qablaşdırma yoxdur. Həmin qablaşdırmadan öncə də "Yeni Zelandiya" və digər yağlara palma yağı vurulduğu barədə məlumatlar var. Yeni yağ kütləsini bir qədər yumşaldır, əlavə olaraq palma yağı qataraq qarışdırır, yenidən soyudub qablaşdırırlar" - bunu bir il öncə iqtisadçı ekspert Akif Nəsirli demişdi.

Ötən il Azərbaycanda saxta düyülərin satıldığı barədə iddialar da gündəmə gəlmişdi. Məlumdur ki, hazırda ölkə bazarında həm yerli, həm də İran, Hindistan, Pakistan və digər ölkələrdən gətirilmiş düyülər satılır. Lakin bəziləri xarici ölkələrdən gətirilən düyülərin saxta olduğu, onların plastikdən hazırlandığı yönündə fikirlər səsləndirirlər. Mövzunun aktuallaşmasının ardından ekspertlər yerli KİV-ə açıqlamasında əsl düyünün saxta düyüdən ayırd edilməsinin yolları barədə tövsiyələr vermişdilər. Bunun üçün onlar sözügedən məhsulu sadəcə suda 5 dəqiqə saxlamağı məsləhət görmüşdülər. Əlavə etmişdilər ki, saxta düyü suda dərhal həll olaraq yapışqan məhlula çevrilir. Həmçinin bildirmişdilər ki, düyü dənəsini yandırmaqla da onun keyfiyyətini müəyyən etmək mümkündür. Belə ki, gerçək düyü dənəsi yanarkən sadəcə rəngini dəyişdiyi halda, plastik məhluldan hazırlanan düyü istiliyə məruz qaldıqda əriyir.

Bir sözlə, Azərbaycan bazarlarında istehlakçıların aldadılması, bir çox hallarda isə onların sağlamlıqlarının təhlükə altına alınması ilə müşayiət olunan saxtakarlıqların miqyası xeyli genişdir və narahatlıq doğurur. İşbazlar "qaz vurub qazan doldurmaq" həvəsi ilə ən müxtəlif hiyləgərliklərə baş vururlar. Belə bir vəziyyətdə yalnız istehsalçıların ayıq-sayıq olması heç nəyi dəyişdirmir, əlaqədar qurumların bazarlara nəzarəti daha da gücləndirməsinə əşhədü-ehtiyac var...

***Sənan Mirzə***

10_27 IYUl-QARA.qxd 3/12/2026 8:32 PM Page 12



## 5.3.7. işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ağdama Böyük Qayıdışın təntənəsi

## "Qafqazın Xirosiması" yenidən dirçəlir!




***İşğaldan azad olunmuş torpaqlara qayıdış davam edir. Bu günlərdə illərlə sükutun əsirinə çevrilən, Ağdama növbəti köç baş tutdu. Martın 5-də Ağdam şəhərinə yola salınan 346 nəfər doğma yurda qovuşdu. 90 ağdamlı ailəyə mənzillərin açarları təqdim edildi. Ağdam şəhərinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər. Onlardan biri di şəhid övladı Ramil Məmmədzadədir.***

O, "Unikal" qəzetinə müsahibəsində bildirib ki, Ağdamdan çıxanda 5-6 yaşı olub. Atası Rəfael Məmmədov 1992-ci ildə Ağdamın azadlığı uğrunda döyüşlərdə şəhadətə yüksəlib.

"Ağdamdan məcburi köçkün düşəndə körpə idik. Bacım, qardaşım, anamla birgə Ağdamı gözüyaşlı tərk etmişdik. Atamı Ağdam şəhərində gedən döyüşlərdə itirdik. Ağdamdan köçkün gəlib Sumqayıtda məskunlaşdıq. Anam bizi çətinliklə böyütsə də, hər zaman Ağdama qayıdacağımıza inamı aşıladı. Mən boksçuyam. Arzum budur ki, Ağdamda boks üzrə mütəxəssislər yetişdirim.Bunun üçün sizin saytın vasitəsilə aidiyyatı qurumlardan kömək istəyirəm. Mənə Ağdamda idman zalı açmağa kömək etsinlər. Mən bundan sonra öz torpağımda çalışmaq istəyirəm. Atamın da ruhu buna görə şad olar ki, mən Ağdamda qalıb onun ocağının işığını yandırıram".

Digər sakin Nizami Süleymanov isə müharibə veteranıdır. O, bildirib ki, Ağdama qayıdış illərin həsrətinin bitdiyi möhtəşəm gündür:"

Mən Ağdamda Könüllü dəstələrə qoşulub döyüşəndə 42-43 yaşım vardı. Hərbi gücümüz az olduğundan biz Ağdamı itirdik. Amma Ağdamı bir gün belə unutmadıq. Ağdamdan üç mərtəbəli və ayrı dörd otaqlı evim vardı. Hamısını düşmən viran qoydu. Ağdamdan üç qızım və həyat yoldaşımla çıxmışdım. Quzanlıdan durub Ağdama həsrətlə baxırdıq. Amma şükür bu günə ki, 77 yaşımı Ağdamda qeyd edəcəm. Buna görə əvvəlcə şəhidlərimizə və qazilərimizə, sonra da Ali Baş Komandana, ordumuza minnətdaram. Qızlarım da ev verildikcə bu torpağa qayıdacaqlar. Ağdam mənim üçün ana, ata deməkdir. Bu günü 30 il gözləmişəm".

Müsahibimiz deyir ki, Ağdamda artıq həyat öz əvvəlki axarına qayıdır. Böyük Qayıdış yalnız insanların evlərinə dönüşü deyil o, dağıdılmış yurdun yenidən nəfəs alması, xatirələrin gerçəyə çevrilməsi və Ağdamın yenidən dirçələn ruhudur.

Ağdamdan danışdıqda yada Ümummilli Lider Heydər Əliyevin Ağdamın işğalı ilə bağlı 1998-ci ildə Milli Məclisdə çıxışı zamanı dediyi sözlər yada düşür: "Mən dedim və bir daha təkrar edirəm, Ağdam Azərbaycanın ən gözəl guşəsidir. İnsanların əsrlər boyu yaşadığı qüdrətli bir yerdir. Ağdam bizim hamımız üçün əziz və müqəddəs şəhər və rayondur. Mən Bərdə və Ağcabədidə qaçqın düşmüş insanlarla görüşdüm. Onların nə qədər daxili mənəvi zənginliyə malik olduqlarını hiss etdim. Bir daha onların qarşısında baş əyirəm".

İndi Ağdamda Prezident İlham Əliyevin rəhbərliyi ilə misilsiz quruculuq və inkişaf mərhələsi davam edir. Təsdiq olunmuş Baş Plan Ağdamın müasir, yaşıl və ağıllı şəhər standartlarına uyğun şəkildə nümunəvi şəhər kimi yenidən qurulmasını nəzərdə tutur. Artıq Ağdam Sənaye Parkı Qarabağ iqtisadiyyatının əsas lokomotivlərindən birinə çevrilib, yeni dəmir yolu və avtovağzal kompleksi regionun mühüm nəqliyyat qovşağı olaraq formalaşır, Muğam Mərkəzi isə Qarabağın zəngin musiqi irsini yeni səviyyədə yaşadır.

Ağdam bu gün Böyük Qayıdış proqramının simvol şəhəri kimi dirçəlir.

2026-cı ilin sonuna qədər isə Ağdamın Baş Qərvənd və Eyvazxanbəyli kədlərinə əhalinin köçü təmin ediləcək. Bunu Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib.

Onun sözlərinə görə, ilin sonuna qədər 1268 ailənin Ağdama köçürülməsi planlaşdırılıb.

Qeyd edək ki, İşğaldan azad olunan Ağdam şəhərində 2026-cı ilin sonuna qədər yaşayış üçün zəruri olan bütün məsələlərin tamamlanması nəzərdə tutulub. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələri salınır. Ağdam şəhəri elə bir layihə ilə qurulur ki, onun dünyada bənzəri olmayacaq.

Təsadüfi deyil ki, bəzi xarici ekspertlər, jurnalistlər Ağdamı "Qafqazın Xirosiması" adlandırırlar. Amma fərq ondadır ki, Xirosima atom bombası nəticəsində viran qoyulub, Ağdamı isə 30 il ərzində erməni oğrular, talançılar sökərək daşlarını da aparıb müxtəlif yerlərdə satırdılar. Bu, misli görünməmiş vəhşilikdir. Erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir. Bütün bunlara rəğmən Ağdam yenidən qurulur. Tarix sübut etdi ki, torpaq öz sahibini unutmur. Bu gün Ağdam yenidən dirçəlir, kül içindən doğan ümid kimi ayağa qalxır. Böyük Qayıdış yalnız bir köç deyil. Bu ədalətin qələbəsi, yaddaşın oyanışı və yurd sevgisinin zaman üzərində qazandığı möhtəşəm zəfərdir!

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# "Aztelekom" ilk dəfə günəş enerjisi ilə işləyən stansiyalarını istismara verdi

***AZCON Holding şirkətlərindən olan "Aztelekom" MMC telekommunikasiya infrastrukturunun dayanıqlığını artırmaq və alternativ enerji həllərini genişləndirmək istiqamətində yeni mərhələyə başlayıb.***

"Unikal" xəbər verir ki, şirkət ilk dəfə olaraq Kürdəmir rayonunun Qarasaqqal və Mollakənd kəndlərində yerləşən GPON (Qiqabit Tutumlu Passiv Optik Şəbəkə) OLT (Optik Xətt Terminalı) stansiyalarında günəş enerjisi sistemlərini quraşdıraraq alternativ enerji qida mənbəyi formalaşdırıb.

Layihə çərçivəsində hər iki stansiyada 5 kVt gücündə günəş enerji sistemi quraşdırılıb. Qarasaqqal kəndində mövcud OLT stansiyası iki qrup 12V/100A AGM batareya ilə inteqrasiya olunmuş günəş panelləri vasitəsilə alternativ enerji ilə təmin olunub. Mollakənd kəndində isə dörd 48V/50A litium batareya ilə təchiz edilmiş 5 kVt-lıq günəş sistemi istismara verilib. Layihələr üzrə planlama, tikinti və istismara təhvil prosesi tamamlanıb.

Tətbiq olunan həllər nəticəsində enerji təchizatında sabitlik gücləndirilib, kənar enerji kəsintilərinin xidmətə təsir riski azaldılıb və GPON şəbəkəsinin fasiləsiz fəaliyyəti əlavə təminat altına alınıb. Alternativ enerji sistemlərinin qurulması əməliyyat xərclərinin optimallaşdırılmasına və karbon emissiyalarının azalmasına da imkan yaradıb.

Qeyd edək ki, "Aztelekom" 2026-cı il ərzində bərpa olunan enerji mənbələrinin tətbiqini digər ərazilərdə mərhələli şəkildə genişləndirməyi planlaşdırır.

# Ucarda ümumi məhsul buraxılışının statistikası

***2025-ci ildə rayon üzrə ümumi məhsul buraxılışı 2024-cü illə müqayisədə 0,4 faiz azalaraq 460314,2 min manat təşkil etmişdir.***

Ümumi məhsul buraxılışının 73,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 19,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, 3,4 faizi sənaye sahəsində, 1,9 faizi tikinti sahəsində, 1,2 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 0,5 faizi informasiya və rabitə sahəsində istehsal edilmişdir.

### İqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı və məhsul buraxılışının fiziki həcm indeksi

| Göstəricinin adı | 2025 yanvar-dekabr (faktiki qiymətlərlə), min manatla | 2024 yanvar-dekabr (faktiki qiymətlərlə), min manatla | Fiziki həcm indeksi, faizlə |
|---|---|---|---|
| Sənaye | 15832,5 | 12882,1 | 109,6 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 339781,0 | 309861,3 | 98,5 |
| Tikinti | 8776,9 | 9736,6 | 90,1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 5305,3 | 4326,8 | 120,8 |
| İnformasiya və rabitə | 2425,4 | 1274,4 | 189,2 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 88193,1 | 83364,9 | 100,6 |
| Yekun | 460314,2 | 421446,1 | 99,6 |

***Ucar Rayon Statistika İdarəsi***



## Mikromobillik vasitələrindən istifadə edənlərin sayı təxminən 3 dəfə artıb

***Bu ilin fevral ayı ərzində Bakı şəhəri üzrə mikromobillik vasitələri 219 412 dəfə sifariş olunub.***

Bu barədə "Unikal" Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) istinadən xəbər verir.

Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə çoxdur. Belə ki, ötən ilin müvafiq dövründə mikromobillik vasitələri 83 415 dəfə sifariş edilib.

Bildirilib ki, nəzərəçarpacaq artım xüsusilə velosipedlərin sifarişində qeydə alınıb: 8,8 dəfə. Belə ki, 2025-ci ilin fevralında velosiped 7 349 dəfə sifariş olunduğu halda, bu ilin müvafiq dövründə 64 339 dəfə sifariş edilib.

Cari ilin fevral ayında alternativ nəqliyyat növü kimi mikromobillik vasitələrindən istifadə edənlərin sayı 110 658 nəfər təşkil edib. Bu, 2025-ci ilin fevral ayının göstəricilərindən 2,2 dəfə çoxdur. Ötən ilin fevralında mikromobillik vasitələri istifadəçilərinin sayı 50 910 nəfər olub.

Xüsusilə yaxın məsafələrə səfərlər zamanı geniş istifadə edilən velosiped və skuterlərlə bu ilin fevral ayında 434 min kilometrdən çox yol qət edilib. Bu, ötən illə müqayisədə 2 dəfədən çoxdur. 2025-ci ilin fevralında mikromobillik vasitələri ilə qət edilən məsafə 201 min kilometr təşkil edib.

Qeyd edək ki, bu rəqəmlər yalnız kirayə xidmətinə dair məlumatları əks etdirir. Şəxsi velosiped və skuterlərindən istifadə edənləri də nəzərə alsaq, rəqəmlərin daha çox olduğunu demək olar.

Aktiv mobillik tədbirlərinin həyata keçirilməsi üçün mikromobillik infrastrukturu genişləndirilir.

Hazırda mikromobillik zolağının ümumi uzunluğu 60,5 kilometr təşkil edir. Şəbəkənin uzunluğunun 100 kilometrə çatdırılması planlaşdırılır. Görülən işlər çərçivəsində skuterlər üçün 872, velosipedlər üçün isə 623 parklanma məntəqəsi təşkil edilib. Hazırda icarəyə verilən skuter sayı 5018, velosiped sayı isə 2200-dür.

## 5.3.17. ekologiya və ətraf mühitin mühafizəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Plastik tullantılarla mübarizədə yeni mərhələ

## Sadiq Həsənov: "Azərbaycanda ildə 20 min tona qədər polietilen torba və plastik qablar istifadə olunur ki, bu da böyük rəqəmdir"

***Plastik qablaşdırma müasir həyatın ayrılmaz hissəsinə çevrilsə də, onun yaratdığı tullantılar getdikcə daha böyük ekoloji problem kimi özünü göstərir. Hər gün istifadə edilən minlərlə plastik qablaşdırma məhsulu qısa müddətdə tullantıya çevrilərək torpağa, su hövzələrinə və canlı aləmə ciddi zərər vurur. Mütəxəssislər bildirirlər ki, plastik tullantıların təbiətdə parçalanması yüz illərlə davam edir və bu müddət ərzində onlar ətraf mühitin çirklənməsinə səbəb olur.***

Son illərdə plastik qablaşdırma tullantılarının mənfi təsirinin azaldılması həm dövlət qurumlarının, həm də cəmiyyətin diqqət mərkəzindədir. Ekoloji tarazlığın qorunması və gələcək nəsillər üçün sağlam mühitin təmin edilməsi məqsədilə plastikdən istifadənin azaldılması, tullantıların çeşidlənməsi və təkrar emalın genişləndirilməsi kimi tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə görülən işlər və atılan addımlar isə problemin həlli baxımından mühüm rol oynayır.

Artıq Azərbaycanda plastik qablaşdırma ilə bağlı ilkin hesabat hazırlanıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən bu günlərdə verilən açıqlamaya görə, "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"nın monitorinq və qiymətləndirilməsinə dair ilkin hesabat hazırlayıb. Mərkəzdən verilən məlumata görə, hazırda hesabat icraçı qurumların nümayəndələri ilə müzakirə olunur.

Qeyd edək ki, Tədbirlər Planı, plastik qablaşdırma məhsullarından kütləvi istifadənin bitkilərə, heyvanlara, torpaq və su resurslarına mənfi təsirinin qiymətləndirilməsi əsasında bu sahədə çirklənmənin azaldılması ilə bağlı tədbirlərin icrası məqsədilə hazırlanıb. Tədbirlər Planında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılması hədəflənib.

Bu məqsədlə, plastik qablaşdırma tullantılarının idarə olunması sisteminin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması, əlavə xammal bazarının formalaşdırılması, alternativ qablaşdırma vasitələrindən istifadənin genişləndirilməsi, təkrar istehsal sahəsində maraqlı olan potensial sahibkarlar və investorlar üçün əlverişli mühitin yaradılması, toplanma və emal sisteminin maliyyələşdirilməsi mənbələrinin formalaşdırılması üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, habelə beynəlxalq təcrübədən istifadə etməklə, müasir texnologiyalar əsasında yeni müəssisələrin yaradılması, təkrar emal bazarının möhkəmləndirilməsi, yeni iş yerlərinin açılması gözlənilir.



Ekoloji məsələlər üzrə ekspert Sadiq Həsənov "Unikal"qəzetinə müsahibəsində bildirib ki, plastik qabların ətraf mühitə zərəri böyükdür. Çünki onların tərkibi karbon və hidrogendən ibarətdir. Bu birləşmə çox mürəkkəb quruluşa malikdir.

"Bu neftdən alınan materialdır. Yüksək temperaturda emal olunur. Bunun emalı zamanı plastikin müxtəlif növləri yaranır. Onun tərkibi mürəkkəb olduğundan təbiətdə yüz illərlə qalmasına səbəb olur, onlar çürümür. Çünki, günəşin təsiri ilə orada kimyəvi çevrilmə baş vermir. Bu səbəbdən bu qablar təbiətdə uzun illər qalır və təkrar emalı asan məsələ deyil. Onları təbiətdən təmizləməyin iki yolu var. Bir yol yandırmaqdır ki, bu zaman da ətraf mühitə zəhərli qazlar atılır. O cümlədən onun tərkibində olan kükürd və digər zəhərli diaksinlər atmosferə atılır. Ona görə də ən yaxşı yol plastik tullantıların emalıdır. Amma bu da böyük texniki imkanlar və xərc tələb edir. 2021-ci ildən Azərbaycan Nazirlər Kabinetinin 2 fevral 28 saylı qərarına görə, polietilen torbalar marketlərdə pullu oldu. Bu müəyyən qədər plastik tullantıları azaltdı. Birdəfəlik qabların isə istifadəsinə iyulun 1-dən tamamilə qadağa qoyuldu. Bu da kifayət qədər effektiv addımdır. Dünya ölkələrinin çoxunda polietilen torbaların qiyməti daha bahadır. Ona görə insanlar öz torbaları ilə marketə alış-verişə gəlirlər. Təəssüf ki, Azərbaycanda hələki bütün satış məntəqələrində bu tətbiq olunmur. Meyvə-tərəvəz satışında biz bunun şahidi oluruq . Azərbaycanda ildə 20 min tona qədər polietilen torba və plastik qablar istifadə olunur ki, bu da böyük rəqəmdir. Bu da plastik torba və tullantıların su hövzələrində və ətraf mühitə tullanmasına səbəb olur. Ona görə də dövlət qurumları bu tullantıların azaldılması üçün ciddi tədbirlər görməlidir".

Qeyd edək ki, dünyanın bir çox ölkələrində artıq bu sahədə müxtəlif təşəbbüslər həyata keçirilir. Avropa İttifaqında bəzi birdəfəlik plastik məhsullar qadağan edilib. Bir çox ölkələrdə plastik butulkalar üçün depozit-qaytarma sistemi tətbiq olunur.

Bioplastik və ekoloji qablaşdırma texnologiyalarının inkişafı sürətlə davam edir.

Şəhərlərdə tullantıların çeşidlənməsi sistemi genişləndirilir.

Polietilen torbaların pullu olması ilk növbədə insanların lazımsız torba götürməsinin qarşısını alır. Bir çox ölkələrdə aparılan müşahidələr göstərir ki, torbalar ödənişli olduqdan sonra onların istifadəsi xeyli azalıb. İnsanlar alış-veriş zamanı daha çox parça və ya təkrar istifadə edilə bilən çantalardan istifadə etməyə başlayırlar.

Plastik qablardan istifadənin qadağan olunması və ya məhdudlaşdırılması da oxşar nəticə verir. Bu zaman müəssisələr və istehlakçılar alternativ materiallara - kağız, karton, şüşə və ya bioloji parçalana bilən qablaşdırmaya üstünlük verməyə başlayırlar. Bu isə təbiətdə uzun müddət parçalanmayan plastik tullantıların miqdarını azaldır.

Lakin mütəxəssislər qeyd edirlər ki, bu tədbirlər təkbaşına problemi tam həll etmir. Effektli nəticə üçün əlavə addımların da atılması vacibdir. Buraya tullantıların çeşidlənməsi sisteminin inkişaf etdirilməsi,

təkrar emal imkanlarının genişləndirilməsi,

əhalinin ekoloji maarifləndirilməsi,

istehsalçıların ekoloji qablaşdırmaya keçməsi daxildir.

Nəticə etibarilə, polietilen torbaların pullu olması və plastik qablara məhdudiyyətin qoyulması problemin azaldılmasında mühüm, lakin kompleks tədbirlərin görülməsinin bir hissəsi hesab olunur.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

10_27 IYUl-QARA.qxd 3/12/2026 8:32 PM Page 14



# Şuşaya aparan döyüş yolu, DQ-nin tarixi missiyası - DİN açıqladı

***Bu foto Vətən müharibəsi günlərində, Şuşa istiqamətində aparılan əməliyyatlar ərəfəsində Qarqar çayının yaxınlığında çəkilib. Kadra düşən şəxsi heyət Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularıdır. Şəkilin çəkilməsindən cəmi bir neçə dəqiqə sonra Şuşa əməliyyatı başlanacaqdı.***



"Unikal" xəbər verir ki, həmin əməliyyatla bağlı DİN-in Mətbuat Xidməti 2020-ci il noyabrın 8-də Daxili Qoşunların Hadrut qəsəbəsində xidməti-döyüş tapşırıqlarını yerinə yetirən şəxsi heyətinin fəaliyyət istiqamətinin dəyişdirilməsi ilə bağlı tarixi faktları açıqlayıb. Vurğulanıb ki, o gün 500 nəfərdən ibarət heyətə Şuşa şəhəri istiqamətində hərəkət edərək döyüş tapşırığını yerinə yetirmək əmri verilib.

Həmin günün ikinci yarısında, axşam saatlarında 30-a yaxın hərbi avtomobildən ibarət karvan yağışlı hava şəraitində, çətin və sıx meşəlikdən keçən dağ yolları ilə hərəkətə başladı. Döyüşçülər düşmənin diqqətini cəlb etməmək üçün avtomobillərin işıqlarını yandırmadan, ay işığında irəliləyiblər.

Gecə yarısı karvan düşmən tərəfindən minaatan atəşinə tutulur və nəticədə 15 hərbi qulluqçu yaralanır. Buna baxmayaraq, şəxsi heyət döyüş tapşırığını dayandırmadan hərəkətini davam etdirib.

Noyabrın 9-u səhər saat 07:30 radələrində Daxili Qoşunların bölmələri Şuşa şəhərinə daxil olub. Onlar ilk növbədə şəhərin müdafiə və mühafizəsinin gücləndirilməsi, eləcə də qarşıya qoyulan digər xidməti-döyüş tapşırıqlarını icra ediblər.

Daxili Qoşunların şəxsi heyəti Şuşada xidməti-döyüş fəaliyyətini 2023-cü il 12 oktyabr tarixinədək davam etdirib.

Bununla yanaşı qeyd olunmalıdır ki, Xüsusi Təyinatlı Qüvvələrlə birgə döyüş əməliyyatlarında iştirak edən Daxili Qoşunların xüsusi təyinatlıları ilə birgə noyabrın 2-dən etibarən Hadrut qəsəbəsində yerləşən təxminən 350 nəfərlik şəxsi heyət də Şuşa istiqamətindəki əməliyyatlara cəlb olunub və şəhərin düşməndən azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstəriblər.

Şuşa uğrunda döyüşlər Azərbaycan hərb tarixinin ən şanlı səhifələrindən biridir. Bu zəfərin qazanılmasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları da yüksək igidlik, qətiyyət və vətənə sədaqət nümayiş etdiriblər.

# Şanlı qələbəmizin qəhrəmanlıq simvolu

***Tehran Nadir oğlu Cəfərov İkinci Qarabağ müharibəsində canını Vətən, millət yolunda fəda etməklə əbədiyyət adlı dünyasına qovuşub. O, ömrünün 28-ci baharında şanlı qələbəmizin qəhrəmanlıq simvoluna çevrilərək əbədi ürəklərə köçüb.***



Vətənə, torpağa olan sevgisi Biləsuvar rayonunun Günəşli kəndində boya-başa çatan Tehranı bütün Azərbaycan xalqı üçün iftixar mənbəyi, qürur yeri edibdir. İndi kiçik də, böyük də öz ölümsüzlüyə qovuşan qəhrəman oğlunun adını ehtiramla çəkir, eləcə yeni nəsil həyatda onun kimi olmağı arzulayır.

Vətəninə, millətinə baş ucalığı gətirən, müqəddəs şəhidlik zirvəsindən gələcəyə boylanan, mənən diri olan, şərəfli ölümü ilə ürəklərdə özünə əzəmətli abidə ucaldan Tehran Cəfərov lap uşaqlıqdan doğma Azərbaycana, onun hər qarış torpağına sevdalı böyüyüb. Odur ki, kənd orta məktəbi başa vuranda yağı düşmənin Qarabağımızın yağmalanması onu daha çox düşündürüb. Elə ordu sıralarına da erməni dığalardan qisas almaq məqsədilə yollanıb.

Tehran cəbhə bölgəsində Vətən qarşısında olan oğulluq borcunu yerinə yetirməyə başlayıb. Xidmət zamanı yurduna bağlılığı, cəsurluğu, igidliyi, mərdliyi əsgər yoldaşlarına nümunə olub. Hərbi hissədə hamı ona hörmət göstərib. Vətəni canından əziz tutan, qəlbi düşmən tapdağında qalan torpaqların azad edilməsi istəyi ilə alışıb-yanan gənc əsgər müharibə zamanı vacib olan döyüş taktikasına həvəslə yiyələnib. Qatıldığı hərbi təlimlərdə həmişə yüksək nəticələr qazanıb. Beləcə, özünü Vətən naminə mübarizəyə tam hazır bilən Tehran müddətli hərbi xidmətini başa vurduqdan sonra yenidən ordu sıralarına qayıdıb, ön xətdə yerləşən bölgələrdən birində torpağına keşik çəkməklə bərabər, həm də yağıdan alacağı öcə görə hərbi biliklərini durmadan artırıb...

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azadlığı uğrunda başlanan haqq savaşımızda hamıdan öncə silaha sarılıb. Əsas məqsədi mənfur erməni işğalçılardan qisas almaq olan Tehran ilk gündən çəkinmədən odun-alovun içinə atılıb, çox cəsarətlə vuruşub və Vətənə, torpağa sonsuz məhəbbəti, dığalara nifrəti sayəsində ağır sınaqdan zəfərlə çıxıb.

Haqq savaşımız başlayan gündən 1 oktyabr 2020-ci ilədək ağır müharibə meydanlarında yağının kabusuna çevrilən qəhrəman döyüşçü Cəbrayılda, Füzulidə hər qarış torpaq uğrunda göstərdiyi hünərlə, sözün əsl mənasında tarix yazıb. Döyüş taktikasını yaxşı bilməklə və həmişə öndə olmaqla çoxlu sayda dığanın axırına çıxıb, onların neçə hərbi texnikasını məhv edib. Düşmən məğlub olsa da, Tehran qəfil atılan gülləyə tuş gəlib, əbədi olaraq ürəyi dayanıb. Cənazəsi Biləsuvar rayonuna gətirilərək doğma kənd məzaristanında torpağa tapşırılıb.

28 yaşında vətənpərvərliyin ən ali məqamına yetişən, əbədi yaşamaq üçün mənən ürəklərə köç edən zəfər şəhidi Tehran Cəfərov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və digər medallara layiq görülüb.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Laçın rayonu üzrə muzdla işləyənlərin sayı, bölgüsü və orta aylıq əməkhaqqı barədə məlumat

***2026-cı ilin yanvar ayında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta sayı 6,6 min nəfər olmuşdur. Onlardan 5,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 0,9 min nəfəri qeyri-dövlət sektorunda çalışmışlar.***



Muzdla işləyənlərin 6,2 faizi tikinti, 3,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,9 faizi dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat, 49,6 faizi təhsil, 11,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,6 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 3,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 3,4 faizi su təchizatı; tullantıların təmizlənməsi və emalı, 9,8 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2026-cı ilin yanvar ayında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,7 faiz artaraq 780,8 manat təşkil etmişdir. İqtisadiyyatın aşağıdakı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmaqla orta rayon göstəricisindən xeyli çox olmuşdur:

-Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı;
-Tikinti;
-Dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat;
-Topdan və pərakəndə ticarət; avtomobillərin və motosikletlərin təmiri;
-Turistlərin yerləşdirilməsi və ictimai iaşə.

***Laçın Rayon Statistika İdarəsi***

# 2025-ci ildə Ağdaşda informasiya və rabitənin əsas göstəriciləri

***2025-ci ildə informasiya və rabitə müəssisələri tərəfindən əhaliyə, müəssisə və təşkilatlara 536,3 min manatlıq və ya əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə 11,7 faiz çox informasiya və rabitə xidmətləri göstərilmişdir və onun da 453,4 min manatı və ya 84,5 faizi əhali tərəfindən istehlak olunmuşdur.***

2025-ci ildə informasiya və rabitə xidmətlərindən əldə olunan gəlirin 429,4 min manatı və ya 80,1 faizi internet xidmətlərindən, 103,7 min manatı (19,3 faizi) şəhər-kənd telefon rabitəsi üzrə xidmətlərdən, 3,2 min manatı (0,6 faizi) isə şəhərlərarası və beynəlxalq telefon rabitəsi üzrə xidmətlərdən daxil olmuşdur.

# 2025-ci ildə Ağdaş rayonunda sənayenin əsas statistikası

***2025-ci ildə rayonun sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 96160,8 min manatlıq və ya əvvəlki ilə nisbətən sabit qiymətlərlə 2,2 faiz çox sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir.***

İstehsal olunmuş sənaye məhsulunun 12301,3 min manatı və ya 12,8 faizi dövlət, 83859,5 min manatı və ya 87,2 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. 2025-ci ildə sənaye məhsulunun 86,9 faizi emal, 11,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 0,1 faizi isə mədənçıxarma sektorlarında istehsal olunmuşdur.

**Sənaye məhsulu istehsalının fəaliyyət növləri üzrə strukturu**




İstehsal olunmuş sənaye məhsulunun 87213,3 min manatı və ya 90,7 faizi hüquqi şəxslərin, 6610,8 min manatı və ya 6,9 faizi ev təsərrüfatlarının, 2336,7 min manatı və ya 2,4 faizi isə fərdi sahibkarların payına düşmüşdür.

***Ağdaş Rayon Statistika İdarəsi***

10_27 IYUl-QARA.qxd 3/12/2026 8:32 PM Page 15



# BMT rəsmisi İlham Əliyevin sülh səylərini yüksək qiymətləndirib

***BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Baş katibi Rebeka Qrinspan XIII Qlobal Bakı Forumunda Azərbaycan Prezidenti İlham Əliyevin sülh səylərini yüksək qiymətləndirib.***

Forumun açılış mərasimində çıxış edən BMT rəsmisi qeyd edib ki, hazırda sülhün (Azərbaycanla Ermənistan arasında - red.) indi yeddinci ayıdır və bu istiqamətdə davamlı addımlar atılır. R.Qrinspan beynəlxalq ictimaiyyət qarşısında Azərbaycanın mövqeyini qeyd etməli olduqlarına da diqqət çəkib.

O, həmçinin əlavə edib ki, forum da parçalanmanın qarşısının alınmasına yönəlib: "1945-ci ildən bəri dünyada münaqişələrin sayı artıb. Hazırda Hörmüz boğazı münaqişə səbəbindən bağlanıb. Buna görə aclıqdan əziyyət çəkən ailələr var. Keniya, Mozambik kimi dövlətlərdə belə insanların sayı daha çoxdur. BMT-nin səlahiyyəti də məhz növbəti nəsilləri müharibədən qorumaqdır. BMT sülhə və beynəlxalq təhlükəsizliyə xidmət edən təşkilatdır. Bunun üçün səmərəli tədbirlər görmək məqsədimizdir. Mən də bunun üçün çalışacağam".

# "Mən onları insan hesab etmirəm" - Zelenski

***Ukrayna Prezidenti Volodimir Zelenski 2014-cü ildə Krımın Rusiyaya birləşməsini dəstəkləyən şəxsləri insan hesab etmədiyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, Zelenski bu sözləri "Politico" jurnalına verdiyi müsahibədə bildirib.

"Krımla bağlı vəziyyət onların hamısını çox dəyişdi. Mənim üçün onlar nə tərəfdaş, nə dost, hətta insan deyillər...", - deyə Zelenski ifadə edib.

***Gülayə Mecid***

# İranda kəşfiyyat nazirinin müavini də öldürüldü

***İranın kəşfiyyat nazirinin müavini Əkbər Qafari öldürülüb.***

"Unikal" xəbər verir ki, bu barədə İran mətbuatı yazıb.

O, Tehrana İsrail-Amerika birgə hava hücumu zamanı həlak olub.

Məlumata görə, o, əvvəllər Şərqi Azərbaycan qubernatorluğunun siyasi və təhlükəsizlik məsələləri üzrə rəis müavini vəzifəsində çalışıb. Onun dəfn mərasimi Təbrizdə keçirilib.

***Ağarza Elçinoğlu***

# İsrail Təhlükəsizlik Xidmətinin qərargahı vuruldu

***İran Silahlı Qüvvələri İsrail Hərbi Hava Qüvvələrinin Palmaçim və Ovda hava bazalarına, eləcə də İsrail Təhlükəsizlik Xidmətinin qərargahına zərbələr endirdiyini açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə İranın "Fars" agentliyi məlumat yayıb. Məlumata görə, hücumlarda dronlardan istifadə edilib.

***Gülayə Mecid***

# Kim Çen In yenə diqqət mərkəzində

***Şimali Koreya lideri Kim Çen In sursat fabrikinə baş çəkib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Kim Çen In fabrikdə kütləvi istehsala başlayan yeni nəsil tapançanı sınaqdan keçirib. Onun atış poliqonunda silahı sınadığını əks etdirən görüntülər dövlət mediası tərəfindən yayımlanıb.

# "Bu cinayətin qisası mütləq alınacaq" - Əraqçi

***"Milli infrastruktura edilən hücumun qisasını alacağıq". "Unikal" xəbər verir ki, bunu İranın xarici işlər naziri Abbas Əraqçi özünün X hesabında yazıb.***

O, İranın milli infrastrukturunun hədəfə alındığını bildirib: "İranın milli infrastrukturu hədəfə alınıb. Bu dəfə ölkəmizin ən qədim bankının filiallarından biri işçilərlə dolu ikən bombalanıb. O işçilər Novruz gəlməzdən əvvəl İran xalqının süfrələrinin bərəkətli olmasını təmin etməyə çalışırdı. Güclü silahlı qüvvələrimiz bu cinayətin qisasını mütləq alacaq".

***Ağarza Elçinoğlu***

# İran XİN Müctəba Xameneinin yaralanmasını təsdiqlədi

***"Trampın insan haqları və ya iranlılar vecinə deyil. Əvvəlcə etirazlar dinc keçdi, sonra Amerikanın müdaxiləçi ritorikasından sonra bəzi terrorçular ölənlərin sayını artırmaq üçün çalışdılar. Onlar ən azı 200 polis məmurunu öldürdülər".***



"Unikal" xəbər verir ki, bunu İranın xarici işlər naziri Abbas Əraqçinin sözçüsü İsmail Bəqayi açıqlayıb.

O, İranın qonşularına qarşı heç bir düşmənçilik etmədiyini açıqlayıb: "Lakin ABŞ-nin bölgədəki hərbi mövcudluğu bir çox təhlükəsizlik problemi yaradıb. Biz qonşularımıza hücum etmirik. Özümüzü onların ərazilərindən istifadə edən təcavüzkarlardan qoruyuruq".

Diplomat yeni Ali Lider Müctəba Xameneinin yaralanması xəbərini təsdiqləyib: "O, zədələnib, amma yaxşıdır. İlk çıxışını nə vaxt edəcəyini bilmirəm. Liderlik üçün üç-dörd ad var idi, amma Konstitusiyaya uyğun olaraq Ekspertlər Məclisinin əksəriyyəti onu seçdi. Bu, sistemimizin tək bir nəfər tərəfindən idarə olunmadığını göstərir".

***Ağarza Elçinoğlu***

# Rusiya Azərbaycan vasitəsilə İrana dərman göndərir

***Rusiyanın Fövqəladə Hallar Nazirliyinə məxsus xüsusi təyyarə İran üçün nəzərdə tutulmuş dərman preparatlarını Azərbaycana çatdıracaq.***

"Unikal" xəbər verir ki, bu barədə TASS nazirliyin mətbuat xidmətinə istinadən yazıb.

Bildirilib ki, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin göstərişi və Rusiyanın Fövqəladə Hallar Naziri Aleksandr Kurenkovun tapşırığına əsasən, nazirliyin aviasiyası vasitəsilə dərman preparatlarının Azərbaycan Respublikasına çatdırılması təşkil olunub. Bu dərmanlar daha sonra İran İslam Respublikasının hökumətinin səlahiyyətli nümayəndələrinə təhvil veriləcək.



Ümumilikdə humanitar yardım kimi 13 ton dərman preparatının çatdırılması planlaşdırılır.

***Gülayə Mecid***

# Paşinyan Vensə "Artsax" haqqında kitab verən direktoru işdən çıxardı

***ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vensin Ermənistana səfəri zamanı Erməni Soyqırımı Muzey-İnstitutu direktoru Edita Qzoyan ona "Artsax" haqqında kitab hədiyyə edib.***



"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, bu barədə Baş nazir Nikol Paşinyan açıqlayıb.

"Soyqırım Muzey-İnstitutu direktorundan istefa verməsini xahiş etdim. Bu, mənim göstərişim idi. Vensə Artsax haqqında kitab hədiyyə etməyi hökumətin siyasətinə zidd olaraq təxribatçı bir hərəkət hesab etdim", - deyə Paşinyan bildirib. Xatırladaq ki, dünən Erməni Soyqırımı Muzey-İnstitutu direktoru Edita Qzoyan işdən çıxarılıb.

***Ağarza Elçinoğlu***

# Yaxın Şərqdəki müharibədə ölənlərin sayı açıqlandı

***Yaxın Şərqdə münaqişənin gərginləşməsindən bəri İran, Livan və İsraildə 1800-dən çox insan həlak olub, 12500-dən çox insan yaralanıb***

"Unikal" xəbər verir ki, bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus sosial media hesabında yazıb.

Onun sözlərinə görə, İranda 1300-dən çox insan ölüb, 9000 nəfər yaralanıb, Livanda ən azı 570 nəfər ölüb, 1400-dən çox insan yaralanıb, İsraildə isə 15 nəfər ölüb, 2142 nəfər yaralanıb.

Qebreyesus həmçinin regionda səhiyyə müəssisələrinə edilən hücumların sayının artdığını qeyd edib.

***Gülayə Mecid***

# Tramp ABŞ-da benzinin bahalaşmasına görə hərəkətə keçdi

***ABŞ prezidenti Donald Tramp İrana qarşı hərbi əməliyyatlar fonunda ölkədə kəskin şəkildə artan benzin qiymətlərini azaltmaq üçün ABŞ-nin Strateji Neft Ehtiyatından qismən istifadə etməyi təklif edib.***

"Unikal" xəbər verir ki, o, bu barədə Ohayo ştatındakı yerli televiziya kanalına verdiyi müsahibədə bildirib.

"Mən neft ehtiyatını bir dəfə doldurmuşam və yenidən dolduracağam, amma hazırda biz onu bir az azaltacağıq və benzinin qiymətlərini aşağı salacağıq", - deyə Tramp ifadə edib.

Xatırladaq ki, 28 fevralda ABŞ və İsrail Tehran da daxil olmaqla İrandakı hədəflərə zərbələr endirməyə başlayıblar. İran İsrail ərazisinə, eləcə də Yaxın Şərqdəki ABŞ hərbi obyektlərinə cavab zərbələri endirir. Nəticədə, Hörmüz boğazından gəmiçilik kəskin şəkildə azalıb.

Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, 2025-ci ildə Hörmüz boğazından neft və neft məhsullarının tranziti gündə orta hesabla 20 milyon barel və ya dünya dəniz neft ticarətinin təxminən 25%-ni təşkil edib. Bu marşrutu keçməklə neftin daşınması imkanı məhduddur.



***Gülayə Mecid***

# PSJ "Çelsi"yə, "Real" "Siti"yə qalib gəldi



***UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin ilk oyunlarına yekun vurulub.***

"Unikal" xəbər verir ki, günün ilk matçı Almaniyada "Bayer" və İngiltərənin "Arsenal" komandaları arasında keçirilib. Qarşılaşma 1:1 hesablı heç-heçə ilə yekunlaşıb.

Digər üç görüşdə Norveçin "Budyo Qlimt" klubu evdə Portuqaliya "Sportinq"ini, İspaniya "Real Madrid"i İngiltərənin "Mançester Siti" kollektivini 3 cavabsız qolla üstələyib. Fransanın PSJ komandası isə evdə İngiltərənin "Çelsi" kollektivini 5:2 hesabı ilə məğlub edib.

Qeyd edək ki, ötən gün baş tutan matçlarda Türkiyə "Qalatasaray"ı evdə İngiltərə "Liverpul"unu 1:0, Almaniya "Bavariya"sı İtaliyada "Atalaznta"nı 6:1, İspaniya "Atletiko"su doğma meydanda İngiltərə "Tottenhem"ni 5:2 hesabı ilə məğlub edib. "Nyukasl" (İspaniya) - "Barselona" (İspaniya) matçında isə qalib müəyyənləşməyib - 1:1.

# Azərbaycanı Avropa Açıq turnirində 19 cüdoçu təmsil edəcək

***Cüdo üzrə Azərbaycan millisinin martın 14-15-də Polşanın paytaxtı Varşavada keçiriləcək Avropa Açıq turniri üçün heyəti açıqlanıb.***

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, ölkəmiz yarışda 9 çəki dərəcəsində 19 cüdoçu ilə (15 kişi, 4 oğlan) təmsil olunacaq.

Qadınlar ın mübarizəsində Gülnarə Bayramova (57 kiloqram), Aytac Qardaşxanlı (70 kiloqram), Nərmin Əmirli və Günel Həsənli (hər ikisi 78 kiloqram) qüvvəsini sınayacaq.

Kişilər arasında isə Babarəhim Mirzəyev, Murad Əliyev, Kənan Hüseynov (hamısı 60 kiloqram), Nazir Talıbov, Hüseyn Allahyarov, Tofiq Məmmədov, Yaşar Nəcəfov, Elşən Əsədov (hamısı 66 kiloqram), İbrahim Əliyev, Rüfət Şövlətov, Nəriman Mirzəyev (hamısı 73 kiloqram), Xəyyam Əliyev (90 kiloqram), Elmar Qasımov, Nihad Şıxəlizadə (hər ikisi 100 kiloqram) və Camal Feyziyev (+100 kiloqram) medal qazanmağa çalışacaq.



Milli komandaya kişilərdən ibarət yığmanın böyük məşqçiləri - Elxan Məmmədov və Slavko Tekiç, qadınlardan ibarət yığmanın məşqçisi İmamverdi Məmmədov rəhbərlik edəcəklər.

Qeyd edək ki, Avropa Cüdo Birliyinin təşkilatçılığı ilə reallaşacaq turnirdə 31 ölkədən 359 idmançı mübarizə aparacaq. Yarışın ədalət təmsilçiləri arasında Azərbaycan Cüdo Federasiyasının hakimlər heyətinin üzvləri, "A" kateqoriyalı referilər Nazim Umbayev və Akif Tahirov da yer alacaq.

# Boksçularımız Dünya Kuboku statuslu turnirdə 4 medal qazanıblar

***Monteneqronun Budva şəhərində gənc boksçular arasında keçirilən Dünya Kuboku statuslu "Adriatik incisi" beynəlxalq turniri başa çatıb.***



Boks Federasiyasından bildirilib ki, Azərbaycan millisi 18 ölkənin qatıldığı yarışda 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıb. Komandanın heyətində Rza Rzayev (70 kiloqram) bütün rəqiblərinə qalib gəlib. O, finalda Maksim Kirillovu 4:1 (30:27, 28:29, 29:28, 29:28, 29:28) hesabı ilə məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Digər boksçularımızdan Heydər Əzməmmədov (85 kiloqram) gümüş, Vüsal Xəlilov (65 kiloqram) və Zaur Səmədov (90 kiloqram) bürünc medala yiyələniblər. Milli bu göstərici ilə komanda hesabında 3-cü yeri tutub.

# Arbeloa: "Nəticə gözləntilərimizi aşdı"

***"Real"ın baş məşqçisi Alvaro Arbeloa Çempionlar Liqasının 1/8 final mərhələsinin ilk oyunları çərçivəsində "Mançester Siti"yə 3:0 hesablı qalib gəldikləri matç haqda danışıb.***

QOL.az "Marca"ya istinadən xəbər verir ki, mütəxəssis komandasının çox vacib bir qələbə qazandığını vurğulayıb:

"Nəticə gözləntilərimizi aşdı. Sevinirəm ki, oyunçular "Santyaqo Bernabeu"da öz zəhmətlərinin qarşılığını aldılar. Olar belə bir axşama layiq idilər. Komandanın gücünə kənardan şübhələr var idi, amma biz "Real"ıq və bizi qiymətləndirməmək olmaz. "Mançester Siti"nin oyun tərzini və Xosep Qvardiolanın taktikasını yaxşı bilirik. Onun nəyi hədəflədiyini başa düşürük.

Rəqib bizi səhvə yol verməyə məcbur edirdi, amma səbirli qalıb təhlükəli vəziyyətlər yarada bildik. Mənim üçün Valverde müasir bir Xuanitodur. O, bir "Real" futbolçusunun necə oynamalı olduğunun nümunəsidir".



# Qvardiola: "0:3 hesabı 0:4-dən yaxşıdır"



***"Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola "Real"a Madriddə 0:3 hesabı ilə uduzduqları UEFA Çempionlar Liqasının 1/8 final mərhələsinin ilk oyununu şərh edib.***

QOL.az xəbər verir ki, ispaniyalı mütəxəssis maçtdan sonra UEFA-nın mətbuat xitmətinə bildirib:

"Əlbəttə, qaytarılan olunan penalti o deməkdir ki, 0:3 hesabı 0:4-dən yaxşıdır. Mən hadisələrin gedişini mütləq dəyişəcəyimizi deyənlərdən deyiləm. Amma buna çalışacağıq. Bəzən ▪Siti'nin hücumları yaxşı alınırdı, bəzən yox, lakin lazım olan qolu vura bilmədik. Komandamızın məqsədi vingerlərin rəqiblərini sıxışdıraraq mərkəzdə oynayan futbolçular üçün boş zonalar yaratması idi. Matçın böyük hissəsində "Siti" öz oyununu göstərməyi bacardı, amma "Real"ın haqqını verməк lazımdır. Bu klubda fantastik futbolçular var.

İkinci hissədə daha yaxşı müqavimət göstərdik. Oyunumuz göründüyü qədər pis deyildi. Sadəcə, madridlilər yaxşı oynadılar. "Siti" çoxlu epizod yaratdı. Bizə sadəcə daha dəqiq ötürmələr lazım idi".

Qeyd edək ki, komandalar arasında cavab oyunu martın 17-də İngiltərədə keçiriləcək.

# Misli Premyer Liqasında 24-cü turun hakimləri açıqlandı



***Misli Premyer Liqasında 24-cü turun hakim təyinatları açıqlanıb.***

"Unikal" xəbər verir ki, oyunları aşağıda adları qeyd olunan hakimlər idarə edəcəklər:

**13 mart (cümə)**

"Araz-Naxçıvan" - "Karvan-Yevlax"

Hakimlər: Kamranbəy Rəhimov, Zeynal Zeynalov, Kərim Zeynalov, İslam Məmmədov

VAR: Elvin Bayramov

AVAR: İnqilab Məmmədov

"Liv Bona Dea Arena", 18:30

"Sumqayıt" - "Şamaxı"

Hakimlər: Cavid Cəlilov, Kamran Bayramov, Müslüm Əliyev, Əkbər Əhmədov

VAR: Əli Əliyev

AVAR: Vüsal Məmmədov

Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu, 20:30

**14 mart (şənbə)**

"İmişli" - "Sabah"

Hakimlər: Rauf Cabarov, Akif Əmirəli, Şirmamed Mamedov, Alik Yunusov

VAR: Əliyar Ağayev

AVAR: Zöhrab Abbasov

Quba OİK stadionu, 15:00

"Zirə" - "Qarabağ"

Hakimlər: Fərid Hacıyev, Namik Hüseynov, Rəhman İmami, Vüqar Həsənli

VAR: Nicat İsmayıllı

AVAR: Emin Əliyev

Zirə İdman Kompleksinin stadionu, 19:15

**15 mart (bazar)**

"Kəpəz" - "Turan Tovuz"

Hakimlər: Tural Qurbanov, Asiman Əzizli, Cəmil Quliyev, Ruslan Quliyev

VAR: Rəvan Həmzəzadə

AVAR: Rahil Ramazanov

Yevlax şəhər stadionu, 15:00

"Qəbələ" - "Neftçi"

Hakimlər: Elçin Məsiyev, Elşad Abdullayev, Pərvin Talıbov, Rəşad Əhmədov

VAR: Kamal Umudlu

AVAR: Teymur Teymurov

Qəbələ şəhər stadionu, 18:00